

KİVDF

**YENİ İQTİSADİ ŞƏRAİT ŞƏHƏR VƏ RAYONLARIN MALİYYƏ ASILILIĞININ AZALDILMASINI TƏLƏB EDİR**

SƏH. 2



VERGİ

**"Yaşıl dəhliz" layihəsi şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərəcək**

SƏH. 3



YUBİLEY

**GÖRKƏMLİ ENERGETİK ALİM**

SƏH. 3

№ 50 (941) 16 - 22 DEKABR 2016-cı il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# Milli Məclisin iki komitəsinin birgə iclasında 15 məsələyə baxılıb



Dekabrın 14-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə gündəlikdəki məsələlərlə bağlı məlumat verib. Bildirib ki, gündəliyə 15 məsələ - Vergi, Mülki Prosessual, Cinayət, İnzibati Xətalar məcəllələrində, habelə "İcra haqqında", "Dövlət rüsumu haqqında", "Elektron ticarət haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Nəşriyyat işi haqqında", "Lotereyalar haqqında", "Təhsil haqqında", "İcbari sığortalar haqqında" qanunlarda dəyişikliklər edilməsi, "Nağdsız hesablaşmalar haqqında" yeni qanun layihəsi daxildir.

Bu qanun layihələri Azərbaycan Prezidentinin imzası ilə Milli Məclisə göndərilib.

Qlobal iqtisadi sarsıntıların, o cümlədən neftin ucuzlaşmasının Azərbaycan iqtisadiyyatına təsir etdiyini bildirən Z.Səmədzadə vurğulayıb ki, risklərin ölkə iqtisadiyyatına təsirinin azaldılması ilə bağlı ciddi işlər görülür. Azərbaycan dövləti 25 illik müstəqillik dövründə çox ciddi uğurlar əldə edib. Təqdim edilmiş qanun layihələri son illərdə neftin ucuzlaşmasının, qlobal sarsıntıların ölkəmizə təsirlərini azaltmağa, davamlı inkişafa xidmət edir.

İclasda çıxış edən vergilər naziri Fazil Məmmədov qeyd edib ki, təqdim edilmiş qanun layihələri nağd hesablaşmaların azaldılması, elektron ticarətin vergiyə cəlb olunması, vergi yükünün azaldılması, vergi inzibatçılığının sadələşdirilməsi, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi orqanlarının göstərdiyi xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədinə xidmət edir. Vergi Məcəlləsinə 115 yeni maddə, 83 dəyişiklik, 3 maddənin ləğvi də daxil olmaqla 201 dəyişiklik nəzərdə tutulur. Bunlardan 123 maddə vergi inzibatçılığının təkmilləşdirilməsi, uçot-qeydiyyatın asanlaşdırılması, 34 maddə vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, 8 maddə vergi yükünün azaldılması, azadolma və güzəştləri əhatə edir.

**Qanun layihəsində vergi yükünün azaldılması və pərakəndə ticarət fəaliyyətində əlavə dəyər vergisinin ticarət əlavəsindən hesablanması məsələləri öz əksini tapıb. Bildirilib ki, kənd təsərrüfatı məhsulları istehsalçıları 1996-cı ildən torpaq vergisi istisna olmaqla, Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər vergilərin ödənilməsindən azad edilib. Həmin məhsullar ticarət şəbəkələri tərəfindən pərakəndə qaydada satılarkən digər məhsulların satışı kimi bu məhsulların da tam dəyəri ümumi qaydada əlavə dəyər vergisinə cəlb edilib.**

**F.Məmmədov qeyd edib ki, Vergi Məcəlləsində ƏDV tutulan əməliyyatların dəyərinin müəyyən edilməsinin başqa qaydası nəzərdə tutulmadığından ticarət şəbəkələri satış üzrə ümumi dövriyyədən ƏDV hesablamalı olurdular. Bu da pərakəndə satışda bahalaşmaya səbəb olurdu. Qeyd edilənləri nəzərə alaraq, kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olanlardan Azərbaycan Respublikasında istehsal edilən kənd təsərrüfatı məhsullarının satışı zamanı ƏDV həmin məhsulların satış qiyməti ilə onların alış qiyməti arasındakı fərqdən, yəni, ticarət əlavəsindən hesablanması ilə bağlı müddəalar layihəyə daxil edilib.** Qanun layihəsində sahibkarların vergi yükünün azaldılması ilə yanaşı, onların dövriyyə vəsaitlərinə qənaət edilməsi, habelə ixracı stimullaşdırmaq məqsədilə ixrac fəaliyyəti ilə məşğul olan şəxslərin apardıqları əməliyyatlardan yaranan ƏDV üzrə artıq ödənmiş vergilərin onların müraciətindən sonra qaytarılması müddətinin 45 gündən 20 günədək endirilməsini əks etdirən düzəlişlər, eyni zamanda, ƏDV tutulan əməliyyatlar aparan digər şəxslər üzrə yaranmış artıq ödəmələr digər vergi öhdəlikləri ilə üç ay müddətinə əvəzləşdikdən sonra qalan məbləğin 20 gün müddətinə qaytarılmasına dair müddəalar öz əksini tapıb.

İcbari tibbi sığorta və səhiyyə, tibb xidmətləri göstərən səhiyyə qurumlarının gəlirlərinin mənfəət vergisindən müddətsiz, buğdanın istehsalının və satışının buğda ununun istehsalının və satışının, quş ətinin isə satışının üç il müddətinə ƏDV-dən azad edilməsi ilə bağlı müddəalar layihəyə daxil edilib.

Layihəyə əsasən banklar tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirlərinin, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividendin, diskont istiqrazlarının nominantdan aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq və faiz gəlirlərinin gəlir vergisindən azad edilməsi müddəti beş ilə qədər, yəni, 2021-ci ilin fevralınadək artırılır.

Qanun layihəsinə əsasən, ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatların həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30 min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

Qüvvədə olan qanunvericiliyə görə kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən verginin hesablanması və ödənilməsi üçün əsas olan sənədlərin vergi orqanına təqdim edildiyi gündən 30 gün müddətində keçirilir. Vergi ödəyiciləri tərəfindən müvafiq sənədlərin vaxtında təqdim edilməməsi və ya ümumiyyətlə sənədləşmənin aparılmaması bəzən kameral qaydada keçirilən vergi yoxlamalarının müddətinin uzadılması ilə nəticələnir. Belə halların aradan qaldırılması məqsədilə ölkə başçısı tərəfindən kameral vergi yoxlamalarının konkret olaraq verilmiş bəyannamələr əsasında 30 gün ərzində başa çatdırılması tapşırılıb.

Layihəyə kameral vergi yoxlamasının vergi bəyannaməsinin təqdim edildiyi vaxtdan 30 iş günü müddətində həyata keçirilməsini və bu müddət başa çatdıqdan sonra həmin bəyannamə üzrə yenidən kameral vergi yoxlamasının keçirilməsini qadağan edən müddəalar daxil edilib. Bildirilib ki, vergi orqanlarında risklərin avtomatlaşdırılmış qaydada emalı sisteminin tətbiqinə başlanılıb və bu da bəyannamələrin 30 gün müddətində kameral qaydada yoxlanılmasına imkan verəcək. Vergi ödəyicisi tərəfindən bəyannamə təqdim edildiyi tarixdən 30 gün sonra vergi orqanları tərəfindən aşkar olunmuş hər hansı uyğunsuzluq barədə vergi ödəyicisində kameral yoxlama keçirilmədən ona həmin uyğunsuzluq barədə 5 iş günü ərzində bildirişin göndərilməsi də vergi ödəyicilərinin hüquqlarının qorunmasına xidmət edir.

Nazir deyib ki, vergi ödəyicilərində aparılan səyyar vergi yoxlamalarının başa çatmasına baxmayaraq, vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin (azaldılmasının) əlamətləri müəyyən edildikdə vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda növbədənkənar vergi yoxlaması keçirilə bilər. Bu zaman keçirilən vergi yoxlaması ilə büdcədən yayındırılmış vergi məbləğləri dövlət büdcəsinə bərpa edilməklə, həmin yayındırılmış məbləğə 50 faiz miqdarında maliyyə sanksiyası tətbiq edilir. Məcəlləyə təklif edilən könüllü vergi açıqlaması ilə bağlı müddəaların tətbiqi vergi ödəyicilərini belə sanksiyalardan azad edəcək.

Könüllü vergi açıqlaması vergi orqanı tərəfindən keçirilən səyyar vergi yoxlaması başa çatdıqdan sonra yoxlama ilə aşkar olunmamış səhvlərin, o cümlədən vergi məbləğlərinin düzgün hesablanmaması hallarının vergi ödəyicisi tərəfindən könüllü olaraq bəyan edilməsini nəzərdə tutur. Bununla bağlı Vergi Məcəlləsinə müvafiq dəyişikliklər təklif edilir ki, bu da vergi ödəyicisinə könüllü vergi açıqlaması barədə səyyar vergi yoxlamasının əhatə etdiyi dövrlərə görə bəyannamə verilməsi hüququnu verir. Həmin bəyannamə ilə könüllü açıqlanmış vergi məbləğlərinə görə vergi ödəyicisinə faiz hesablanmır və maliyyə sanksiyası tətbiq edilmir. Analoji müddəalar ABŞ-ın, əksər Avropa ölkələrinin, qardaş Türkiyənin qanunvericiliyində öz əksini tapıb.

"Nağdsız hesablaşmalar haqqında" qanun layihəsi barədə məlumat verən F.Məmmədov deyib ki, sənədə əsasən ƏDV məqsədləri üçün qeydiyyata alınmış vergi ödəyiciləri və vergi tutulan əməliyyatların həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən təqvim ayı ərzində ümumi məbləği 30 min manatdan, digər vergi ödəyiciləri tərəfindən isə təqvim ayı ərzində ümumi məbləği 15 min manatdan artıq olan hesablaşmalar üzrə ödənişlər yalnız nağdsız qaydada həyata keçirilməlidir.

**Qanun layihəsinə əsasən, vergilərin, gömrük rüsumları və yığımlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının və faizlərin verilməsi, "Sığorta fəaliyyəti haqqında" və "İcbari sığorta haqqında" qanunlarla müəyyən edilmiş ödənişlər, dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar, əməliyyatların həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200 min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqları, o cümlədən işəgötürən tərəfindən ödənilən qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər, pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatlar, stasionar telefon xidmətləri və kommunal xərclərin ödənilməsi, faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olmayan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla) və digər ayırmaların ödənilməsi və qaytarılması, dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi), təhsil haqlarının ödənilməsi, turizm agentliklərinə ödəmələr yalnız nağdsız qaydada aparılmalıdır.**

Nazir vurğulayıb ki, bu qanunun tələblərinin pozulmasına görə təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə aparılan əməliyyatların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi ilə bağlı Vergi Məcəlləsinə müvafiq maddə daxil edilib.

SƏH. 2





# Gələcək əməkdaşlığımız üçün çox böyük potensial var

Dekabrın 13-də İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu Azərbaycana səfər etmişdir.

Rəsmi qarşılanma mərasimindən sonra Prezident İlham Əliyevin və Baş nazir Benyamin Netanyahunun təkbətək görüşü olmuşdur.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan-İsrail sənədlərinin imzalanması mərasimi olmuşdur.

Dekabrın 13-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsrail Dövlətinin Baş naziri Benyamin Netanyahu mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyev demişdir: - Biz bir çox sahələrdə əməkdaşlıq edirik. Bu gün imzalanmış sənədlər əməkdaşlığımız üçün çox böyük potensialın olduğunu açıq-aydın göstərir. Sənədlərin hamısı çox vacibdir. Mən onların arasında ikitərəfli əməkdaşlığın çox səmərəli mexanizmi olan birgə iqtisadi komissiyanı yaratmağa imkan verəcək sənədin əhəmiyyətini vurğulamaq istərdim. Əminəm ki, bu, ticarət dövriyyəsini artırmağa və onu şaxələndirməyə kömək edəcək. Ticarət dövriyyəsi yaxşı səviyyədə olsa da, bu, əsasən Azərbaycandan İsrailə neft ixracına görədir. Biz bunu şaxələndirmək və artırmaq üçün işləməliyik.

Bu gün biz ikitərəfli əlaqələrimiz, regional inkişaf ilə bağlı çox geniş spektrli məsələləri müzakirə etdik. Müzakirələr çox açıq, dostluq şəraitində keçdi. Bu müzakirələr bizə ikitərəfli əlaqələrimizi gücləndirməyə kömək edəcək.

# Milli Məclisin iki komitəsinin birgə iclasında 15 məsələyə baxılıb

*(əvvəli 1-ci səhifədə)*

Bildirilib ki, qeyd edilənlərlə yanaşı, banklardan nağd pul vəsaitlərinin çıxarılmasının məhdudlaşdırılması məqsədilə Vergi Məcəlləsinin layihəsinə hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə banklar və poçt rabitəsinin milli operatorları tərəfindən bir faiz dərəcəsi ilə sadələşdirilmiş verginin tutulmasına dair müddəa da daxil edilib. Nağd ödənişlərin məhdudlaşdırılması dünyanın əksər ölkələrinin, o cümlədən Fransa, İtaliya, İspaniya, Belçika, Çexiya, Slovakiya, Qazaxıstan və sair dövlətlərin qanunvericiliyində də nəzərdə tutulub. Qanun layihəsində nağd qaydada xərclərin çəkilməsinə məhdudiyyətin qoyulması və pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına bir faiz dərəcə ilə sadələşdirilmiş verginin tutulması vətəndaşlara deyil, yalnız vergi ödəyicilərinə münasibətdə tətbiq olunacaq. Bu dəyişikliklər bütövlükdə ölkədə nağdsız əməliyyatların həcminin artmasına, bankların maliyyə vəziyyətinin yaxşılaşmasına, onların likvidliyinin təmin edilməsinə, pul dövriyyəsinin tənzimlənməsinə, büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın təmin edilməsinə, əməkhaqlarının və digər ödənişlərin leqallaşmasına və nəticədə ölkənin beynəlxalq reytinqinin daha da artırılmasına şərait yaradacaq.

**Vergi Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyətlə məşğul olanlar sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malikdir. Bu fəaliyyət növləri üzrə fiziki şəxslər sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğ, yəni 30 manat ödəyəcəklər.**

**Bundan başqa, fərdi foto, audio-video xidmətləri (fotostudiyalar istisna olmaqla) sahəsində fəaliyyət göstərən fiziki şəxslər sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğ olaraq 30 manat ödəyəcəklər.**

**Sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququna malik olan çəkməçi, pinəçilər isə sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğ olaraq 5 manat ödəyəcəklər.**

**Saat, televizor, soyuducu və digər məişət cihazlarının təmiri, eləcə də fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və digər analoji işlərlə məşğul olanlar sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğ olaraq 10 manat ödəyəcəklər.**

**Naqqaşlıq emalatxanalarının fəaliyyəti üzrə fiziki şəxslər sadələşdirilmiş vergi üzrə aylıq sabit məbləğ olaraq 20 manat ödəyəcəklər.**

Vergi Məcəlləsində edilməsi nəzərdə tutulan dəyişikliyə əsasən, mühərrikin həcmi 2000 kubsantimetrədək olan minik avtomobilləri üçün aksiz dərəcəsi 0,20 manat məbləğindədir. Mühərrikin həcmi 3000 kubsantimetrədək olduqda 400 manat və əlavə olaraq mühərrikin həcminin 2001-3000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 3 manat aksiz dərəcəsi müəyyənləşdirilib. Mühərrikin həcmi 4000 kubsantimetrədək olduqda 3400 manat və əlavə olaraq mühərrikin həcminin 3001-4000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 8 manat aksiz dərəcəsi müəyyənləşdirilib. Mühərrikin həcmi 5000 kubsantimetrədək olduqda 11400 manat və əlavə olaraq mühərrikin həcminin 4001-5000 kubsantimetr hissəsi üçün hər kubsantimetrə görə 20 manat aksiz dərəcəsi müəyyənləşdirilib.

Mühərrikin həcmi 5000 kubsantimetrdən çox olduqda 31400 manat və əlavə olaraq mühərrikin həcminin 5000 kubsantimetrdən çox olan hissəsi üçün hər kubsantimetrə görə 40 manat aksiz dərəcəsi müəyyənləşdirilib. İstirahət və ya idman üçün yaxtalar və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrin mühərrikinin həcminin hər kubsantimetrinə görə 6 manat aksiz dərəcəsi müəyyənləşdirilib.

"Elektron ticarət haqqında" qanun layihəsi elektron ticarətin əhatə dairəsinin genişləndirilməsini, elektron ticarətin əsas iştirakçılarından olan kart təşkilatının, təcrübədə geniş tətbiq edilən pul kisəsinin anlayışını, habelə elektron ticarətin iştirakçısı olan satıcıya dair tələbləri müəyyən edən normaları özündə ehtiva edir.

F.Məmmədov qeyd edib ki, Vergi Məcəlləsinə də rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb edilməsinin işlək mexanizmini müəyyən edən müddəaların əlavə edilməsi nəzərdə tutulur. Layihəyə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə, habelə elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin keçirilməsinə görə ƏDV-nin alıcısının olduğu yerdə vergiyə cəlb edilməsi ilə bağlı müddəa da daxil edilib. Həmin müddəalara əsasən vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən yerli bank, xarici bankın Azərbaycandakı filialları və ya poçt rabitəsinin milli operatoru tərəfindən qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı, alıcının vəsaiti hesabına tutulmalı və büdcəyə ödənilməlidir. Beləliklə, vergi edilən dəyişikliklə elektron ticarət aparan vergi ödəyicilərinə şəffaf nəzarətin təmin edilməsinə, rezident və qeyri-rezident elektron ticarət iştirakçıları arasında diskriminasiyanın aradan qaldırılmasına nail olunacaq.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, vergi siyasəti ölkənin iqtisadi siyasətinin bir parçası kimi, onun məqsədlərinə nail olmaqda böyük rol oynayır. Vergi siyasətinə İqtisadiyyat Nazirliyi yalnız fiskal və fiskal məqsədlərə çatmaq nöqteyi-nəzərindən deyil, eyni zamanda, iqtisadi inkişafın davamlılığının təmin edilməsi, onun dəstəklənməsi və iqtisadi siyasətin yürüdülməsinin bir aləti olaraq baxır. Bu nöqteyi-nəzərdən də İqtisadiyyat Nazirliyi Vergilər Nazirliyi tərəfindən hazırlanan və bir çox qurumlarda müzakirə olunan məsələlərə öz tərəfindən baxıb.

Dövlət Gömrük Komitəsinin Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsinin rəisi Mirqasım Vahabov qeyd edib ki, idxal mallarından buğda və buğda ununun, eyni zamanda, daxil olan məmulatların ƏDV-dən üç il müddətinə azad edilməsi bugünkü reallığa tam uyğundur. O deyib ki, avtonəqliyyat vasitələrinə aksiz vergisinin tətbiq edilməsi də önəmli hallardan biridir. Ötən ilin 11 ayı ilə müqayisədə ümumilikdə ölkə ərazisinə idxal olunan avtonəqliyyat vasitələrinin say həcmi 82 faiz azalıb. Yəni, cəmi 25 min avtonəqliyyat vasitəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə idxal olunmuşdusa, bu il 4800-dən bir qədər çox avtonəqliyyat vasitəsi idxal olunub. O cümlədən bu istiqamətdə vergi 94,5 milyon manat az toplanıb. Bu gün Azərbaycan ərazisində 2 milyona yaxın avtonəqliyyat vasitəsi var. Mühərrikinin həcmi daha yüksək olan lüks avtonəqliyyat vasitələrinin aksizlərinin qaldırılması məsələsi vacibdir. Ötən ilin 11 ayında mühərrikinin həcmi 5000 kubsantimetrdən yüksək olan 160 avtonəqliyyat vasitəsi idxal edilib, onun 10-u güzəştli qaydada, yəni, diplomatik xidmətlərə görə gətirilib.

Sonra deputatlar qanun layihələri ətrafında fikir və təkliflərini səsləndiriblər.

Sonda gündəlikdəki qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

KİVDF
Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# YENİ İQTİSADİ ŞƏRAİT ŞƏHƏR VƏ RAYONLARIN MALİYYƏ ASILILIĞININ AZALDILMASINI TƏLƏB EDİR

***Yola saldığımız 2016-cı il beynəlxalq aləmdə iqtisadi-siyasi və maliyyə böhranlarının dərinləşdiyi il kimi tarixə düşdü. İki ildir dünya bazarlarında neftin qiymətinin ucuzlaşması və digər qlobal problemlər respublikamıza da təsirsiz ötüşmədi. Lakin bütün çətinliklərə rəğmən, ölkə iqtisadiyyatı ciddi sarsıntıya və tənəzzülə məruz qalmadı. Qarşıya qoyulan strateji hədəflər vaxtlı-vaxtında yerinə yetirildi.***

***2004-cü ildən başlanılan və bu gün də uğurla davam etdirilən Dövlət Proqramlarının icrası regionların simasını köklü şəkildə dəyişdi, sosial-iqtisadi tərəqqiyə və inkişafa yol açdı. Bu gün ölkə qarşısında duran ən aktual məsələlərdən biri regionların daxili imkanlar hesabına maliyyələşdirilməsinin təmin edilməsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə danışarkən demişdir:***

«Hər bir regionun iqtisadi və sənaye potensialı güclənməlidir. Buna imkanlar var. Ancaq bizim əksər rayonlarımız dotasiya ilə yaşayır. Əvvəlki illərdə biz buna, necə deyərlər, göz yuma bilərdik. Böyük gəlirlərimiz var idi və bu dotasiyaları biz verirdik. Ancaq nə üçün bizim rayonlarımız dotasiya ilə işləməlidirlər? Bizim rayonlarımızın əhalisi orta hesabla o qədər də çox deyil. Onlar özləri iqtisadi cəhətdən daha səmərəli işləsələr, bütün xərcləri bağlaya bilərlər».

Cənab prezidentin qarşıya qoyduğu bu hədəflərə çatmaq üçün regionlarda mövcud potensialdan istifadənin səmərəsini artırmaq, iqtisadi sferanın ayrı-ayrı sahələrinin, aqrar sektorun, turizm sektorunun dirçəldilməsini təmin etmək tələb olunur. Son 12 il ərzində görülən ardıcıl və sistemli tədbirlər nəticəsində makroiqtisadi göstəricilərin səviyyəsində yüksək dinamika qorunmaqla yanaşı, iqtisadiyyatın diversifikasiyası da təmin edilmişdir.

Bir məqamı xüsusi olaraq vurğulamaq lazımdır ki, əldə olunan maliyyələr bir sıra amillərlə yanaşı, həm də sahibkarlığın və özəl bölmənin inkişafına yaradılan münbit şərait hesabına mümkün olmuşdur. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycanın ümumi daxil məhsul strukturunda özəl bölmə üstün mövqeyə malikdir. Ötən 12 il ərzində sahibkarlıq subyektlərinə güzəştli şərtlərlə 1,7 milyard manatdan çox kredit verilib, bütövlükdə Azərbaycan iqtisadiyyatına 200 milyard manat vəsait qoyulub. Həmin investisiyalar hesabına iqtisadiyyatın neftdən asılılığının azaldılması tendensiyası baş vermiş, minlərlə yeni müəssisələr, zavod və fabriklər, istehsalat və emal sahələri işə salınmış, ölkədə güclü sahibkarlıq zümrəsinin formalaşması prosesi getmişdir.

İndiyədək dotasiya almayan rayon və şəhərlərin siyahısına baxsaq görərik ki, bu proseslər daha çox sənayeləşmənin aparıldığı zonalarda baş vermişdir. Belə ki, ölkə miqyasında fəaliyyət göstərən əsas sənaye müəssisələri Bakı, Sumqayıt və Mingəçevir şəhərlərindədir. Dövlətin aqrar bölmənin inkişafına hərtərəfli diqqət və qayğısı əldə olunan müsbət makroiqtisadi göstəricilərdə kənd təsərrüfatının payını və çəkisini artırmışdır. Həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün əlverişli zəmin yaradılıb. Dövlət tərəfindən fermer təsərrüfatlarına bir sıra güzəştlər tətbiq edilir. Belə ki, təsərrüfat subyektləri torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilmişlər. Fermer və sahibkarlara güzəştli şərtlərlə kredit, toxum materialı, «Aqrolizinq» Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinq yolu ilə gübrə, texnika, damazlıq mal-qara verilir. Bununla yanaşı, əkin-səpin



və becərmə əməliyyatlarının aparılmasında istifadə olunan yanacaq və motor yağlarına görə dövlət tərəfindən subsidiyalar ayrılır.

Görülən bütün çoxşaxəli tədbirlər həm kənd təsərrüfatında keyfiyyət göstəricilərinin yaxşılaşmasına, fermerlərin gəlirlərinin artmasına, həm də rəqabətədavamlı, ixracyönlü məhsul istehsalının genişlənməsinə gətirib çıxarmışdır. Abşeron və İmişli rayonlarında isə sənaye sahələri ilə yanaşı, kənd təsərrüfatı məhsullarının istehsalında və tədarükündə də artım müşahidə olunmuşdur. Məhz bu səbəbdən də adıçəkilən rayonlarda toplanan vergilər yerli büdcənin formalaşmasında əsas rol oynayır. Odur ki, həmin rayonlar neçə ildir ki, dövlət dotasiyası almırlar.

Yeni iqtisadi şəraitlə əlaqədar qarşıda duran əsas vəzifələrdən biri büdcə xərclərinin səmərəliliyinin artırılması və optimallaşdırılmasının təmin edilməsi ilə bağlıdır. Əsas məqsəd bu yolla şəhər və rayonların dövlət büdcəsindən maliyyələşdirilməsinin azaldılmasından və tədricən dayandırılmasından ibarətdir. Fərəhləndirici hal kimi qeyd etmək lazımdır ki, 2017-ci ilin büdcə layihəsində dotasiyalardan imtina edən rayon və şəhərlərin sayının artdığı göstərilir. Büdcə layihəsinə əsasən, 2017-ci ildə dövlət büdcəsindən mərkəzləşdirilmiş xərclərdən ayrılan maliyyə yardımının, yəni dotasiyanın həcmi yerli xərclərin tərkibində 9,9 faiz təşkil edəcək ki, bu da əvvəlki illə müqayisədə 706, 5 milyon manat və ya 91,2 faiz azdır. Yerli gəlirlərin hesabına büdcəni təmin edən rayon və şəhərlərin sayı bir neçə dəfə artıb. Belə ki, Mingəçevir, Naftalan, Sumqayıt və Şirvan şəhərləri, İmişli və Abşeron rayonları ilə yanaşı, Gəncə, Lənkəran, Şəki, Yevlax şəhərləri, Ağcabədi, Astara, Biləsuvar, Bərdə, Beyləqan, Göyçay, Hacıqabul, Xaçmaz, İsmayıllı, Kürdəmir, Qazax, Masallı, Neftçala, Saatlı, Sabirabad, Salyan, Siyəzən, Şabran və Şamaxı rayonları da 2017-ci ildən xərclərini yerli gəlirlər hesabına təmin etməyə başlayacaq.

Dotasiyanın azaldılmasının əsas yolu yerli istehsalı artırmaqla həm daxili, həm də xarici bazarlarda satıla bilən çeşidli sənaye və kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsindən keçir. Bu tədbirləri görərkən rayonların spesifik xüsusiyyətləri nəzərə alınmalı və onların ixtisaslaşdırılması prosesi sürətləndirilməlidir. İstehsalın və satışın təşkilində yeni yanaşma tələb olunur. Rayonlarda istehsal və topdansatış proseslərini tənzimləyən iri assosiasiyaların, birliklərin və birjaların yaradılması zəruri vəzifə kimi qarşıda durur. Başqa sözlə, istehsalçı əvvəlcədən bilməlidir ki, istehsal etdiyi məhsulu kimə və hansı qiymətə satacaq. Ölkəmizdə kifayət qədər kartof istehsal olunmasına baxmayaraq, qış mövsümündə kartof İrandan, Türkiyədən, Rusiyadan idxal olunur. Min tonlarla məhsul mövsüm zamanı dəyər-dəyməzinə satılır, qalan hissəsi isə zay olub atılır. Cari mövsümdə ən böyük kartofçuluq rayonu olan Cəlilabadda bu cür hallar yaşandı. Belə vəziyyətə düşən təsərrüfatların gəlir götürməsindən danışmaq yersizdir.

Təsərrüfat idarəçiliyi sistemi düzgün qurularsa, Azərbaycanın hər bir rayonu özünümaliyyələşdirmə prinsipi əsasında işləyə bilər. Buna nail olmaq üçün hər bir şəhər, rayon özünün daxili imkanlarını düzgün dəyərləndirməli və konkret fəaliyyət proqramları müəyyən etməlidir. Açığını demək lazımdır ki, dotasiya alan ra-yonların bir çoxu, heç də dotasiya almayan rayonlardan zəif daxili imkanlara malik deyillər! Deməli, həmin rayonlarda struktur islahatlarına, yerli təşəbbüslərin dəstəklənməsinə və digər təşkilatı və stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə zərurət vardır. Bunu həyata keçirmək üçün iqtisadi imkanlarla yanaşı, həm də ölkədə əlverişli sahibkarlıq və biznes mühiti formalaşıb.

Təbii ki, bütün şəhər və rayonların dövlət dotasiyasından imtina etməsinə zaman lazımdır. Vaxtilə təkcə Bakı şəhəri dotasiya almırdı, sonra onların sayı 6-ya çatdırıldı. Yeni ildən isə öz yerli xərcləri hesabına maliyyələşən şəhər və rayonların sayı 34-ə çatdırılacaq ki, bu da qarşıya qoyulan hədəflərin real olduğunu təsdiqləyir. Dotasiya almayan şəhər və rayonların sırasına daha 27-sinin əlavə olunması ondan xəbər verir ki, respublikamızın regionlarında dayanıqlı və davamlı inkişaf prosesi gedir.

Regional inkişafdan və özünümaliyyələşdirmədən danışarkən bu prosesdə bələdiyyə qurumlarının da fəal iştirakı təmin edilməlidir. Lakin onu da açıq etiraf etmək lazımdır ki, hələ ki bələdiyyələr formal qurumdan yaradıcı quruma keçə bilməyiblər. Bir çox bələdiyyələr əsas vəzifəsini abadlıq, səliqə-sahman işlərinin aparılmasında görürlər. Bunlar da lazımdır. Lakin söhbət yerli gəlirlərdən gedirsə, onu qazanmağın yolları tapılmalıdır. Rayonlarımızda bələdiyyə mülkiyyətində olan min hektarlarla istifadəsiz torpaq sahələri var. Həmin torpaqları əkin dövriyyəsinə cəlb etməklə güclü istehsal potensialı yaratmaq, yaxşı gəlir götürmək olar.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev aqrar sahədə qarşıda duran ən mühüm istiqamətləri konkret olaraq müəyyən etmişdir. Əsas prioritetlər taxılçılıqla yanaşı, pambıqçılığın, üzümçülüyün, baramaçılığın, tütünçülüyün, fındıqçılığın, çayçılığın sürətli inkişaf tempinə çıxarılmasıdır. Bütün istehsal proseslərinin müasir texnologiyalar əsasında qurulması, yüksək standartlara cavab verən məhsul istehsalı, modern təsərrüfatların və heyvandarlıq komplekslərinin yaradılması, ərzaq məhsulları ilə daxili tələbatın tam şəkildə ödənilməsi, güclü ixrac potensialının yaradılması, Azərbaycan brendi altında məhsulların dünya bazarlarında özünə layiqli yer tutması – bütün bunlar yaxın illərdə gerçəkləşməsi vacib olan ən ümdə vəzifələrdir. İnanırıq ki, böhranlı illər olmasına baxmayaraq, respublikamızın hər bir şəhərinin, hər bir rayonunun, hər bir yaşayış məntəqəsinin insanları bu nəcib amallar uğrunda səfərbər olaraq birləşəcək və qarşıya qoyulan bütün vəzifələrin öhdəsindən gələcəklər. Belə olan halda yaxın bir neçə il ərzində bir-birinin ardınca bütün rayonlar dövlət dotasiyasından imtina edəcək, həmin vəsaitlər digər vacib istiqamətlərə – elmtutumlu, innovasiyatutumlu sahələrə yönəldiləcək, bu isə öz növbəsində dövlətimizə ucalıq, xalqımıza isə firavanlıq bəxş edəcək.

***Zülfü İLYASOV,***
***«İqtisadiyyat» qəzetinin bölgə müxbiri***

# "Yaşıl dəhliz" layihəsi şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərəcək

## Layihənin KİV üçün təqdimatı keçirilib




**Dekabrın 14-də Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentində (BVD) KİV nümayəndələri üçün "Açıq Qapı Günü" keçirilib.**

Tədbir BVD-nin vergi ödəyicilərinə xidmət mərkəzi ilə tanışlıqdan başlayıb. Mətbuat nümayəndələrinə xidmət mərkəzinin əsas fəaliyyət istiqamətləri, iş prinsipləri və s. barədə ətraflı məlumat verilib. Bildirilib ki, lazımi maddi texniki baza ilə təmin olunan mərkəz ötən il vergi ödəyicilərinin istifadəsinə verilib. Xidmət Mərkəzində vergi ödəyicilərinə mövcud vergilər, onların hesablanması və ödənilməsi qaydaları, ödəyicilərin və vergi orqanlarının hüquq və vəzifələri, qanunvericiliyin tətbiqi məsələləri, bəyannamələrin təqdim olunması müddətləri, vergi güzəştlərindən istifadə imkanları, vergi borcu haqqında ətraflı məlumatlar verilir, vergi xidmətləri göstərilir.

Sonra KİV nümayəndələri üçün şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyicilərinə "Yaşıl dəhliz" prinsipi ilə göstəriləcək xidmətlərlə bağlı təqdimat keçirilib. Vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət baş idarəsinin rəisi Ələkbər Məmmədov bildirib ki, görüşün məqsədi ictimaiyyəti Vergilər Nazirliyinin vergi sahəsində həyata keçirdiyi islahatların davamı olan yeni "Yaşıl dəhliz" layihəsi ilə tanış etməkdir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamı vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması məqsədilə vergi sistemində islahatların davam etdirilməsini, ölkədə könüllü əmələetmə səviyyəsinin yüksəldilməsinə nail olunmasını nəzərdə tutur. Bu istiqamətdə görülən işlər çərçivəsində şəffaf vergi partnyorluğu prinsipi əsasında fəaliyyət göstərən vergi ödəyiciləri ilə aparılacaq işlərin, onlara göstəriləcək xidmətlərin müəyyən edilməsi üçün vergilər naziri Fazil Məmmədovun əmri ilə müvafiq qaydalar təsdiq edilib. Bu qaydalar şəffaf vergi partnyorluğu əsasında fəaliyyət göstərən vergi ödəyicilərinin müəyyən edilməsi meyarlarını, onlara göstəriləcək xidmətləri və digər məsələlər üzrə prosedurları tənzimləyir. Bildirilib ki, vergi ödəyiciləri "Partnyor vergi ödəyicisi statusu"na malik olmaq üçün bir sıra meyarlara cavab verməlidir. Belə ödəyicilər, ilk növbədə, vergi hesabatlarını vaxtlı-vaxtında təqdim etməli, vergiləri tam həcmdə və vaxtında ödəməli, işçilərinin sayını və onların əmək haqlarını düzgün bəyan etməli, gücləndirilmiş elektron imzaya sahib olmalı, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun, yazışmaları isə əsasən elektron şəkildə aparmalıdırlar.

Partnyor ödəyicilərə, ərazi məhdudiyyəti nəzərə alınmadan, Yaşıl dəhliz prinsipi əsasında xidmət göstəriləcək. Burada, bir sıra ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlərin də təqdim edilməsi nəzərdə tutulur. Belə xidmətlərə videobağlantılar, Çağrı və xidmət mərkəzlərində partnyor ödəyicilərə növbəsiz və sürətli xidmətlərin göstərilməsi, partnyor ödəyicilərin müraciəti əsasında onlar üçün dəyirmi masa, seminar və konfransların təşkili, xüsusi təlim proqramlarının hazırlanması və s. aiddir.

Ə.Məmmədovun sözlərinə görə, koordinasiya işlərinin təşkili məqsədilə hər bir partnyor ödəyici üçün aidiyyatı vergi strukturundan kuratorlar ayrılacaq. Kuratorlar partnyor ödəyicilərin müraciəti əsasında onlara ünvanlı xidmətlər göstərəcəklər. Partnyor vergi ödəyicilərinin siyahısı, onların razılığı əsasında, mütəmadi olaraq açıqlanacaq. Bu digər vergi ödəyiciləri üçün də nümunə olacaq və onlar intizamlı vergi ödəyicisi olmağın üstünlüklərini aydın şəkildə görə biləcəklər.

İlkin mərhələdə Bakı şəhərində belə tələblərə cavab verən ödəyicilərin sayının 400-dən çox olduğunu bildirən vergilər nazirinin müşaviri, hazırda yerli vergi orqanlarında analoji qurumların yaradılması ilə bağlı təkliflər hazırlandığını və yaxın vaxtlarda həmin təkliflərin müzakirəyə çıxarılacağını diqqətə çatdırıb.

Tədbirdə o da bildirilib ki, vergi orqanları şəffaf partnyorluq prinsipi əsasında fəaliyyət göstərən ödəyicilərə münasibətdə yaranan ziddiyyətli məqamları qarşılıqlı razılaşma yolu ilə həll etməyə çalışacaq, onların müraciətlərinə mövcud qanunvericilikdə müəyyən edilmiş müddətlərdən 3 dəfə tez baxılacaq.

Ə.Məmmədov qeyd etmişdir ki, "Yaşıl dəhliz" layihəsinin uğurlu tətbiqi ölkədə investisiya və biznes mühitinin yaxşılaşdırılmasına, könüllü vergi əməletmənin artmasına və cəmiyyətdə vergi mədəniyyətinin yüksəlməsinə səbəb olacaqdır.

Tədbirin sonunda KİV nümayəndələri üçün brifinq keçirilib və onların sualları cavablandırılıb.

## Vergilər Nazirliyinin əməkdaşı IOTA-nın Əsas Strateji İşçi Qrupuna üzv seçilib

Vergilər Nazirliyi 2002-ci ildən tamhüquqlu üzvü olduğu Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) ilə əməkdaşlıq münasibətlərini daim genişləndirir. Bu əməkdaşlıq çərçivəsində qurumun işində yaxından iştirak edən, üç dəfə IOTA-nın İcraiyyə Şurasında təmsil olunan ölkəmizə və Vergilər Nazirliyinin mütəxəssislərinə qurum daxilində böyük etimad və etibar yaranıb. Bu günlərdə isə IOTA azərbaycanlı vergi mütəxəssislərinə daha bir etimad göstərib.

Oktyabr ayında IOTA üzv ölkələrə müraciət edərək təşkilatın yeni strategiyasının hazırlanması məqsədilə Əsas Strateji İşçi Qrupun yaradılmasının nəzərdə tutulduğunu elan etmiş və 45 dövlətin vergi administrasiyalarından həmin qrupa namizəd irəli sürülməsi ilə bağlı təkliflərin verilməsini xahiş etmişdi. Vergilər Nazirliyi İşçi Qrupa Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin rəis müavini, Azərbaycanı IOTA-da təmsil edən baş əlaqələndirici şəxs Orxan Musayevin namizədliyini irəli sürmüş və bu, IOTA tərəfindən təsdiq edilmişdi. Qeyd olunmalıdır ki, Əsas Strateji İşçi Qrupa cəmi 7 namizəd seçilib və Azərbaycandan əlavə, burada Böyük Britaniya, İtaliya, Danimarka, Çex Respublikası, Rumıniya və Bolqarıstan təmsilçisi də yer alıb.

IOTA-nın hazırda qüvvədə olan Strateji Planı 2012-2017-ci illəri əhatə edir. Növbəti illər üçün hazırlanacaq yeni Strateji Planın əsas məqsədi üzv dövlətlərin vergi administrasiyalarının dəyişən qlobal şəraitdə növbəti inkişaf mərhələlərinə qədəm qoymaları üçün daha əlverişli mühit yaratmaq, onların tələblərinə cavab vermək və yardım etməkdir. Yeni Strateji Planın hazırlanması məqsədilə İcraiyyə Şurası tərəfindən üzv ölkələrin vergi administrasiyalarının vəzifəli şəxslərindən ibarət İşçi Qrupun yaradılması qərara alınıb. İşçi Qrupun üzvləri İcraiyyə Şurası ilə mütəmadi məsləhətləşmələr aparmalı, 2017-ci ilin may ayınadək Strateji Planın «Yol xəritəsi»ni hazırlamalıdırlar.

# Azərbaycan KİV rəhbərlərinin Ankaraya səfəri davam edir





**Azərbaycan KİV təmsilçilərinin Türkiyə paytaxtına səfəri davam edir. Dekabrın 13-də nümayəndə heyəti Avrasiya Araşdırmalar Mərkəzində (AVİM) olub. Qurumun rəhbəri Alev Kılıç görüş iştirakçılarına AVİM-in fəaliyyəti və icra etdiyi layihələr barədə məlumat verib. O, AVİM-in fəaliyyətində Qafqaza və xüsusi olaraq Azərbaycana ciddi önəm verildiyini bildirib: "Azərbaycan Türkiyə ilə dost, qardaş ölkədir. Eyni zamanda, Azərbaycan Türkiyəni digər türk dövlətləri ilə əlaqələndirən strateji bir bağdır".**

KİVDF-nin icraçı direktoru, nümayəndə heyətinin rəhbəri Vüqar Səfərli KİV təmsilçilərinin Ankaraya səfərinin məqsədi, həmçinin Azərbaycanda KİV-in durumu və rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verib. Vüqar Səfərli Azərbaycan KİV-inin iki ölkə arasında əlaqələrin inkişafına təkan verən istənilən layihəni dəstəklədiklərini önə çəkərək, AVİM-lə əlaqələrin də inkişaf etdirilməsinin zəruriliyini bildirib.

Görüşdə çıxış edənlər Azərbaycan və Türkiyə KİV arasında əməkdaşlığın inkişaf etdirilməsi yolları barədə fikirlərini bölüşüblər. Nümayəndə heyətinin növbəti görüşü TRT-də keçirilib.

Azərbaycan KİV təmsilçiləri dekabrın 13-də Ankarada "Atatürk movzeleyi"ni də ziyarət ediblər.

Səfər proqramı davam edir. Məlumat üçün bildirək ki, KİV təmsilçilərinin səfər proqramı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə həyata keçirilir. Nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Vüqar Əliyev, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Məmmədov, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov, Fondun Müşahidə Şurasının sədr müavini, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Fondunun Müşahidə Şurasının üzvü, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Palitra" qəzetinin baş redaktoru Namiq Əliyev, "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu, "Bakı-xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, Fondun Müşahidə Şurasının üzvü, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, "Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz, "Media-info.az" İnformasiya Agentliyinin baş redaktoru Emin Axundov, "Şərq qapısı" qəzetinin baş redaktoru Tural Səfərov və Fondun aparıcı məsləhətçisi Ramin Kərimli daxildirlər.

Dekabrın 14-də nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisində görüşlər keçirib. Fondun icraçı direktoru, nümayəndə heyətinin rəhbəri Vüqar Səfərli KİV təmsilçilərinin Ankaraya səfərinin məqsədi, həmçinin, Azərbaycanda KİV-in durumu və rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə məlumat verib. Vüqar Səfərli Azərbaycan KİV-nin iki ölkə əlaqələrinin inkişafına xidmət edən istənilən fəaliyyətə informasiya dəstəyi verməyə hazır olduğunu vurğulayıb.

Nümayəndə heyətinin növbəti görüşü "Anadolu" Agentliyində keçirilib. KİV rəhbərləri agentliyin ofisi, texniki imkanları və struktur bölmələri ilə tanış olublar.

Yurddışı Türklər və Akraba Topluluklar Başkanlığına (ATATB) gələn Azərbaycan KİV təmsilçilərini ATATB başqanı Mehmet Köse qəbul edib. ATATB-ın fəaliyyəti barədə məlumat verən Mehmet Köse Azərbaycan və Türkiyə diaspor təşkilatlarının sıx əməkdaşlıq etdiyini vurğulayaraq, bu əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün yeni proqramlar hazırlandığını bildirib.

Səfər proqramı dekabrın 16-dək davam edəcək. Nümayəndə heyətinin səfər çərçivəsində Türkiyənin rəsmi dövlət qurumlarında, informasiya məsələlərinə məsul olan təşkilatlarda, həmçinin aparıcı KİV redaksiyalarında görüşləri nəzərdə tutulub.



## Azərbaycanda 14,1%-lik ərzaq inflyasiyası

2016-cı ilin yanvar-noyabr aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2015-ci ilin eyni dövrünə nisbətən 12,1 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 14,1 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 16,8 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 5,6 faiz bahalaşmışdır. Bu barədə Dövlət Statistika Komitəsindən bildirilib.

2016-cı ilin noyabr ayında oktyabr ayına nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 1,7 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 2,6 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 1,9 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 0,3 faiz bahalaşmışdır.

Ay ərzində düyünün, unun, qarabaşaq yarmasının, peçenye və paxlavanın, makaron məmulatlarının, mal, qoyun və toyuq ətinin, balıq məhsullarının, kolbasa məmulatlarının, süd məhsulları, pendir və yumurtanın, kərə və bitki yağlarının, şəkər və şəkər tozunun, qəhvə, çay və kakaonun, spirtli içkilərin, armudun, narın, heyvanın, pomidorun, xiyarın qiymətlərində bahalaşma, bananın, almanın, limonun, naringinin, xurmanın, şabalıdın, kələmin, göyərtinin, kökün, soğanın qiymətlərində isə ucuzlaşma müşahidə olunmuşdur. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Noyabr ayında oktyabr ayı ilə müqayisədə qeyri-ərzaq məhsullarından parçaların, geyim və ayaqqabıların, inşaat materiallarının, dərmanların, mebel və ev əşyalarının, zərgərlik məmulatlarının, xalça və digər döşəmə örtüklərinin, ev üçün toxuculuq məmulatlarının, şüşə məmulatları, yemək qabları və əşyalarının, məişət cihazlarının, fərdi kompüterlərin, dəftərxana ləvazimatlarının, kitabların, minik avtomobilləri üçün ehtiyat hissələrinin qiymətlərində bahalaşma müşahidə olunmuşdur. Digər qeyri-ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

Ay ərzində əhaliyə göstərilən ödənişli xidmətlərdən mənzillərin icarə haqlarının, məişət cihazlarının, avtomobillərin təmiri xidmətlərinin, dəmiryol, hava və dəniz nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində bahalaşma müşahidə olunmuşdur. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

# Белорусская экономика является одной из самых открытых в мире




Белорусская экономика является одной из самых открытых в мире. Президент Беларуси Александр Лукашенко заявил 13 декабря на церемонии вручения верительных грамот послами зарубежных стран, передает корреспондент БЕЛТА. "Белорусская экономика является одной из самых открытых в мире. Сегодня наряду с принятием мер, направленных на активизацию бизнеса, мы углубляем международные торгово-экономические связи, - сказал Президент. Он отметил, что Беларусь является одним из государств - основателей Евразийского экономического союза, который уже через два года после создания вошел в число крупнейших интеграционных объединений Евразии. "Убежден, что, развивая экономические отношения с Беларусью, вы оцените поистине безграничные перспективы, вытекающие из возможности доступа на общий рынок ЕАЭС", - заявил белорусский лидер. Президент отметил, что в нынешнем году Беларусь отмечает 25-летие своего суверенитета. "За сравнительно короткий период был преодолен экономический спад, вызванный развалом СССР, и фактически воссоздано социально ориентированное государство. К настоящему времени нами проведена системная модернизация практически всех отраслей и секторов экономики", - сказал Александр Лукашенко. Он привел данные, согласно которым на экспорт поставляется более 50% производимых в стране товаров. "Мы по праву гордимся принципиально новыми направлениями хозяйственной деятельности - атомной энергетикой, космическими и биохимическими технологиями, в военно-промышленном комплексе", - заявил белорусский лидер. Глава государства также напомнил, что в сентябре нынешнего года сформирован новый состав Национального собрания Республики Беларусь. "Полагаю, это серьезный повод задуматься нам с вами о расширении межпарламентского взаимодействия. Надеюсь, вы сыграете существенную роль в диалоге законодательных ветвей власти наших стран", - сказал Президент. Александр Лукашенко подчеркнул, что Беларусь открыта к тесным контактам и сотрудничеству и готова реализовывать взаимовыгодные проекты. "Убежден, что вы будете не только наблюдателями, анализирующими происходящие в Беларуси процессы, но и займете активную позицию по расширению практических связей наших государств", - отметил глава государства. Президент принял верительные грамоты от послов Буркина-Фасо, Индонезии, Канады, Литвы, Люксембурга, Монголии, Финляндии, Франции, Эритреи, Эстонии, Апостольского Нунция в Беларуси.

# Будут продлены налоговые каникулы по банковским вкладам и инвестиционным ценным бумагам

Процентные доходы по банковским вкладам населения в Азербайджане до февраля 2021 года освобождаются от налогообложения, сказал в среду министр по налогам Азербайджана Фазиль Мамедов в ходе заседания парламентского комитета по экономическим вопросам, промышленности и предпринимательству.

По словам министра, поправки в Налоговый кодекс также предусматривают освобождение от налогообложения дивидендов, выплачиваемых эмитентом по инвестиционным ценным бумагам, дисконтов и процентных доходов.

В марте 2016 года распоряжением Президента Азербайджана Ильхама Алиева процентные доходы по банковским вкладам, а также дивиденды, выплачиваемые эмитентом по инвестиционным ценным бумагам, дисконты и процентные доходы с первого февраля 2016 года были освобождены от налогообложения сроком на три года.

С первого января 2015 года с процентных доходов, начисленных по банковским вкладам физических лиц, удерживался налог в 10 процентов. От налогообложения была освобождена часть доходов в размере до 500 манатов. При этом налогообложение распространялось на проценты по вкладам, начисленные после первого января 2015 года, а проценты по доходам, составляющие до 500 манатов в год, были освобождены от уплаты налога.

С 2010 года доходы физических и юридических лиц по операциям с ценными бумагами облагались налогом в 10 процентов.



# Беларусь в 2017 году планирует привлечь не менее $1,4 млрд прямых иностранных инвестиций

Беларусь в 2017 году планирует привлечь не менее $1,4 млрд прямых иностранных инвестиций на чистой основе (без учета задолженности прямому инвестору за товары (работы, услуги). Это следует из постановления Совета Министров №1008 от 8 декабря 2016 года "О реализации задач социально-экономического развития Республики Беларусь на 2017 год", которым утверждены поквартальные значения ключевых показателей эффективности работы на 2017 год для правительства и Национального банка, руководителей республиканских органов госуправления, а также руководителей облисполкомов и Минского горисполкома, опубликованного сегодня на Национальном правовом интернет-портале, передает корреспондент БЕЛТА. Согласно документу, валовой внутренний продукт планируется нарастить на 1,7% к уровню 2016 года в сопоставимых ценах. Предполагается, что производительность труда увеличится на 1,8%, экспорт товаров и услуг - на 3,8%, реальные располагаемые денежные доходы населения - на 1,3%. Сальдо внешней торговли товарами и услугами составит 0,1%. Индекс потребительских цен не превысит 9%. Что касается поквартальных значений ключевых показателей эффективности работы руководителей республиканских органов государственного управления и иных госорганизаций, подчиненных правительству, то наибольший темп роста экспорта товаров определен для Министерства промышленности - 111,7%, экспорта услуг - для Министерства архитектуры и строительства (105%). Больше всего прямых иностранных инвестиций на чистой основе должен привлечь концерн "Белнефтехим" - не менее $145 млн. Темп роста валового регионального продукта для Брестской и Минской областей установлен в 102,2%, для Витебской и Гомельской - 101,3%, для Гродненской и Могилевской - 102,3%, для Минска - 101,8%.-0- ТЕГИ Беларусь, инвестиции, Совет Министров

# Инвесторы приобрели ноты Центробанка Азербайджана на более чем 50 млн манатов



На Бакинской фондовой бирже (БФБ) накануне состоялся аукцион по размещению краткосрочных нот Центрального банка Азербайджана со сроком обращения 28 дней на сумму 75 миллионов манатов, сообщает БФБ. Заявки на ноты были поданы двумя инвесторами. Общий объём заявок составил 50,58 миллиона манатов. Заявки были представлены по цене 98,8472 маната, при доходности в 14,9945 процента. Последний срок оплаты по нотам - 11 января 2017 года. В конце октября Палата надзора над финансовыми рынками Азербайджана зарегистрировала два проспекта эмиссии краткосрочных нот Центрального банка на общую сумму 650 миллионов манатов. В рамках первой эмиссии будет выпущено шесть миллионов нот стоимостью сто манатов, а в рамках второй - 500 тысяч нот стоимостью сто манатов.

Краткосрочные ноты являются инструментом денежно-кредитной политики для регулирования денежной массы в обороте. Приобретать ноты могут только банки. Официальный курс на 15 декабря составляет 1,7475 AZN/USD.

# Началось строительство нового этапа TANAP

Стартовал новый этап строительства Трансанатолийского трубопровода (TANAP) на западе Турции, сообщает в среду информагентство Ihlas.

По данным агентства новый этап предусматривает строительство трубопровода протяженностью в 68 километров, и эти работы планируется завершить в течение шести месяцев.

Стальные трубы местного производства доставляются из провинции Османие посредством железной дороги в порт Бандырма, и отсюда на грузовиках транспортируются в логистический центр в районе Гонене в провинции Балыкесир.

Трубопровод TANAP будет проложен от грузино-турецкой границы до западной границы Турции, и предусматривает транспортировку газа с азербайджанского месторождения "Шах Дениз".

Первоначальная пропускная способность трубопровода TANAP, как ожидается, составит 16 миллиардов кубических метров газа в год. Около шести миллиардов кубометров будет поставляться в Турцию, а остальное - в Европу. В Турцию газ попадет в 2018 году, а после завершения строительства Трансадриатического газопровода (TAP) газ поступит в Европу приблизительно в начале 2020 года.

Состав акционеров TANAP выглядит следующим образом: SOCAR - 58 процентов, Botas - 30 процентов, BP - 12 процентов.



# В отеле «Эксельсиор Отель & Спа Баку» прошел тренинг для студентов, получающих образование в сфере туризма

8 декабря 2016 года отель «Эксельсиор Отель & Спа Баку» в рамках КСО провел очередной тренинг для студентов получающих образование в сфере туризма. В тренинге приняли участие студенты, обучающиеся на факультетах туризма из Азербайджанского Университета Туризма и Менеджмента и Азербайджанского Государственного Экономического Университета.

Начальник отдела корпоративных коммуникаций ОАО «АтаХолдинг» Диляра Заманова приветствовала студентов и предоставила информацию о программе мероприятия.

Декан факультета журналистики Бакинского Славянского университета Шелале Гасанова рассказала о значении деловой репутации в бизнесе, особенностях формирования имиджа и управления репутационным капиталом в туристической сфере.

Преподаватель Азербайджанского Университета Туризма и Менеджмента и член ассоциации ресторанов и отелей DAIR Агалиева Динара выступила по теме об особенностях функционирования продовольственного сектора и сектора размещения в сфере услуг туризма.

HR менеджер отеля «Эксельсиор Отель & Спа Баку» Кямран Рзаев, сделал обширное представление про составление CV и правильные тактики на собеседовании, умение вести деловые переговоры.



Генеральный менеджер отеля «Эксельсиор Отель & Спа Баку» Турхан Пойраз отметил по поводу мероприятия, что отель «Эксельсиор Отель & Спа Баку»участвует в различных программах подготовки специалистов для наиболее динамично развивающейся отрасли азербайджанской экономики туристического сектора. Ежегодно студенты Азербайджанского Университета Туризма и Менеджмента проходят 3-х и 6-ти месячную практику в различных департаментах отеля. Проведением подобного тренинга, подготавливая студентов, отель поддерживает развитие кадрового потенциала в туристическом секторе экономики страны. Целью программы тренингов и практики является привитие студентам практических навыков в туристическом секторе.

Начальник отдела корпоративных коммуникаций ОАО «АтаХолдинг» Диляра Заманова выступила по теме основных направлениях PR-деятельности в сфере туризма. Подробно рассказав, как складывается общественное мнение и формируется доброжелательное отношение к туристической структуре и ее деятельности со стороны целевых аудиторий и широких масс населения.

В заключение тренинга были даны ответы на интересующих студентов вопросы.

# Азербайджан доволен уровнем сотрудничества с Израилем в сфере обороны

Азербайджан активно сотрудничает с Израилем в сфере оборонной промышленности, и это сотрудничество продолжается уже несколько лет. Об этом сказал Президент Азербайджана Ильхам Алиев, выступая во вторник в Баку с заявлением для прессы вместе с премьер-министром Израиля Биньямином Нетаньяху.

"Для того, чтобы показать насколько широко это сотрудничество, представлю вашему вниманию одну цифру. Стоимость контрактов, подписанных до сих пор компаниями Азербайджана и Израиля в связи с приобретением оборонного оборудования составляет около пяти миллиардов долларов, если говорить более точно, четыре миллиарда 850 миллионов долларов. Большая часть этих контрактов уже реализована. Мы еще работаем над этим и очень довольны уровнем этого сотрудничества", - сказал глава государства.

# Standard & Poor's подтвердило рейтинг PASHA Bank на высоком уровне

Международное рейтинговое агентство Standard & Poor's в очередной раз подтвердило рейтинг ведущего корпоративного банка Азербайджана – PASHA Bank – на высоком уровне. Так, долгосрочный рейтинг дефолта эмитента («РДЭ») подтвержден на уровне «ВВ-», краткосрочный РДЭ - на уровне «В». Данный рейтинг является одним из самых высоких среди всех частных банков Азербайджана со 100%-ным местным капиталом.

По словам Председателя правления PASHA Bank Талеха Кязымова, залогом очередного подтверждения рейтинга стали надежность, сильные рыночные позиции и ежедневная кропотливая работа слаженного профессионального коллектива Банка.

«Несмотря на усиление макроэкономических вызовов, мы, как региональный финансовый институт, продолжили оказывать поддержку своих клиентов, предоставляя им профессиональную экспертизу и индивидуальное обслуживание. Таким образом, подтверждение рейтинга PASHA Bank свидетельствует как о сохранении нами устойчивой финансовой позиции в странах операций, так и о растущем доверии клиентов к нам, как к бизнес-партнеру», - подытожил Т.Кязымов.

Отметим, что в своем отчете Standard & Poor's указывает на то, что PASHA Bank обладает высокой значимостью для банковского сектора Азербайджана, и в своей оценке бизнес-позиции Банка учитывает его значительную рыночную долю в сегменте услуг, предоставляемых корпоративным клиентам, а также наличие опытной управленческой команды.

Beynəlxalq akademiyaların və Gürcüstan Milli Energetika Akademiyasının akademiki, Əməkdar elm xadimi, "Şöhrət" ordenli, M.Lomonosov və Y.Məmmədəliyev medallarının laureatı, keçmiş ittifaqın "Əlaçı" energetiki, dövlət fəxri fərmanı ilə təltif olunmuş, dünya miqyaslı görkəmli alim, texnika elmləri doktoru, professor Kamal Mehman oğlu Abdullayev 1936-cı ildə dekabr ayının 19-da Azərbaycan Respublikasının səfalı güşələrinin birində, Qusar rayonunun Əcəxur kəndində, ziyalı ailəsində anadan olmuşdur. Həyata qədəm qoyduğu ilk məqamlardan zaman onu çox çətin sınaqlara çəkmiş və o, olduqca ağır, dözülməz şəraitdə böyümüşdür.

# GÖRKƏMLİ ENERGETİK ALİM



Kamal müəllimin mərhum atası Abdullayev (Abdullazadə) Mehman Hacıbala oğlu Azərbaycanın müstəqilliyinin ilk qurbanlarından biri olub.

Mehman müəllim o dövrdə gimnaziyanı bitirdikdən sonra Qusar rayonunda maarif sistemində çalışmış və rayonun ən qabaqcıl, adlı-sanlı ziyalılarından biri olmuşdur. Onunla bir dövrdə yaşamış indiki nəslin yaşlı nümayəndələrinin dediklərinə görə, Mehman müəllim yüksək dərəcədə savadlı, geniş dünyagörüşlü və yüksək nüfuzlu bir ziyalı olmuşdur. Kamal müəllim bu haqda aşağıdakıları dedi: "Mərhum anamın dediklərinə görə, atam Hüseyn Cavid, Mustafa bəy Topçubaşov, Nəriman Nərimanov, Əhməd Cavad və digər ictimai-siyasi xadimlərlə çox yaxın, sıx əlaqə saxlamışdır. Ancaq, əfsuslar olsun ki, onun həbsi zamanı çox qiymətli sənədləri və fotoşəkilləri şəxsi arxivi ilə birlikdə yoxa çıxmış və ancaq bir neçə fotoşəkil təsadüfən qalmışdır. Bu da ailəmizə atamızdan qalan qiymətli yadigarlardır".

K.M.Abdullayevin atası Mehman müəllim 1937-ci ildə Müsavat partiyasının üzvü və respublikamızın müstəqilliyi uğrunda mübarizə aparan ziyalı olduğu üçün əksinqilabçı adı altında güllələnmə hökmü ilə həbs edilmişdi. Bu zaman onun yaşadığı mənzili və bütün şəxsi əmlakını, o cümlədən şəxsi kitabxana və arxivini müsadirə etmişdilər. Bütün ailə üzvləri isə sürgün edilərək, müxtəlif rayonlarda yaşamağa məcbur olmuşdur. Sürgündən bir neçə il keçdikdən sonra Mehman müəllimin ailəsinə, doğma elinə qayıtmasına icazə verilmişdir.

1961-ci ildə Kamal müəllimin atası Mehman Abdullayevə (Abdullazadə) ölümündən sonra respublika ali məhkəməsinin qərarı ilə bəraət verilmişdir.

Kamal müəllim sürgündən sonra kəndə qayıdaraq Əcəxur kənd orta məktəbinin birinci sinfinə daxil olmuşdur. Yeri gəlmişkən, qeyd edək ki, onun təhsil aldığı Əcəxur kənd orta məktəbi indi Respublika Nazirlər Kabinetinin qərarı ilə mərhum atası Mehman Abdullayevin (Abdullazadə) adını daşıyır.

Kamal müəllim 1956-cı ildə Energetika Texnikumunu "İstilik Energetika" ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmişdir. O, sonra Sənaye İnstitutunun istilik energetikası fakültəsinin rus bölməsinə daxil olmuşdur. Kamal müəllim bilmirdi ki, o vaxt istilik energetikası ixtisasını seçəndə onun gələcək həyatının müqəddəratı həll olunacaq və sonrakı illərdə bir görkəmli alim kimi yetişməsi və formalaşması mərhum prof. İsmayıl Makinski ilə bağlı olacaqdır

Kamal müəllim institutda oxuduğu ilk illəri belə xatırlayır: "Rus dilini bilmədiyimdən birinci və ikinci kurslarda çox çətinlik çəkirdim. Oxuduğum qrupda çox qüvvətli uşaqlar var idi, belə ki, 25 nəfərdən 15 nəfəri Bakı şəhərində orta məktəbi qızıl və gümüş medallarla bitirmiş tələbələr idi. Adətən, auditoriyada arxa sıralardan birində təkbaşına oturardım, çünki rus dilini bilmədiyimdən qrup yoldaşlarımla az ünsiyyətdə olardım. Təklikdə müəllimlərə yaxınlaşıb xahiş edirdim ki, məndən məsələ və misalların həllini Azərbaycan dilində soruşsunlar. Rusca keçilən dərsləri başa düşürdüm, ancaq cavab verə bilmirdim, ona görə çox həyəcan keçirir və çıxılmaz vəziyyətdə qalırdım. Yadımdadır, bir dəfə bu səbəbdən əsəbiləşərək möhkəm xəstələndim. Sonradan Azərbaycan bölməsinin başqa ixtisaslarına keçmək üçün dekanlığa ərizə ilə müraciət etməli oldum. Vəziyyətimdən xəbər tutan sevimli müəllimlərim İsmayıl Makinski, İsmayıl İbrahimov və Ənvər Hüseynzadənin təkidi ilə mən rus bölməsində istilik energetika ixtisasına yiyələndim".

Kamal müəllim, istər texnikumda, istərsə də institutda oxuduğu dövrdə təqaüdlə dolanıb və hətta təqaüddən maddi kömək kimi evə də göndərirdi. Ailənin maddi çətinliyini nəzərə alaraq institutda təhsillə bərabər, həm də energetika texnikumunda laborant və istehsalat ustası vəzifəsində işləyirdi.

Kamal müəllimin həyatının digər dönüş nöqtəsi institutun axırıncı kursunda oxuyan dövrə təsadüf edir. İnstitutu qurtaran zaman Azərbaşenerji idarəsinin texniki şöbəsinin rəisi mərhum D.L.Draxman onun diplom işinin rəhbəri təyin edilmişdi. Qeyd edək ki, D.L.Draxman çox təcrübəli və yüksəkixtisaslı mühəndis idi. Burada da Kamal müəllimin bəxti gətirmişdi. Belə ki, məhsuldar işləməklə o, diplom işini bir ay müddətində tam yerinə yetirmiş və hələ diplom işini müdafiə etməmiş, yəni institutu bitirməmiş diplom rəhbəri D.L.Draxmanın təqdimatına əsasən, Azərbaşenerji idarəsinin o vaxtkı rəisi, respkublikamızın energetikasının banisi, mərhum professor A.B.Bayramzadə onu işə götürmüşdü.

Beləliklə, 1961-ci ilin fevral ayından, yəni institutun V kursunda oxuyan dövrdə o, Azərbaşenerji idarəsinin Kimya xidməti şöbəsində mühəndis vəzifəsində işləməyə başlamış və bir il keçməmiş, yəni 1962-ci ilin yanvar ayından həmin şöbədə qrup rəhbəri vəzifəsinə təyin olunmuşdu. Sonra, 1963-cü ildə, Azərenerjisazlama idarəsində istilik elektrik stansiyalarının su rejimləri üzrə rəisi işləmiş və həmin ilin dekabr ayından Azərbaşenerji idarəsinin Kimya xidməti şöbəsinin rəisi vəzifəsinə irəli çəkilmişdi.

Beləliklə, o Kimya xidməti şöbəsinin rəisi işləməklə prof. İ.ZMakinskinin elmi rəhbərliyi altında qiyabi aspiranturaya daxil olmuş və 1966-cı ildə texnika elmləri üzrə namizədlik dissertasiyasını müdafiə etmişdir.

1967-ci ildən öz yaradıcı həyatını institute həsr etdi. İnstitutda dosent işləməklə yanaşı, Azərbaşenerji idarəsinin xahişi ilə Kamal müəllim 1972-ci ilə kimi yarımştat şöbə rəisi vəzifəsində işləmişdir.

1972-ci ildən indiyə kimi indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetində "Su hazırlığı, buxar generatorları və sənaye istilik texnikası" (indiki "İstilik energetikası") kafedrasının müdiri və kafedranın nəzdində "Dəniz suyunun sənayedə istifadə edilməsi" problem laboratoriyasının elmi rəhbəri vəzifələrini daşımaqdadır. Bu vəzifələrlə yanaşı, 1974-cü ildən başlayaraq müxtəlif dövrlərdə təxminən iyirmi ilə yaxın müddətdə, eyni zamanda, Energetika fakültəsinin dekanı vəzifəsində işləmişdir.

1978-ci ildə Kamal müəllim Moskva Energetika İnstitutunda doktorluq dissertasiyası müdafiə etmiş və 1980-ci ildə professor elmi dərəcəsinə layiq görülmüşdür. Elm sahəsində əldə etdiyi böyük nailiyyətlərə görə 1975-ci ildə Ekoenergetika və Ekologiya və Həyat Fəaliyyətinin Təhlükəsizliyi Beynəlxalq akademiyalarının akademiki, 2004-cü ildə isə Gürcüstan Milli Energetika Akademiyasının akademiki seçilmişdir.

1981-ci ildə mühəndis və elmi kadrların hazırlanmasındakı xidmətlərinə görə o, respublika Ali Sovetinin Fəxri fərmanı və keçmiş SSRİ-nin "əlaçı energetiki" və "Əməkdar elm xadimi" fəxri adları ilə təltif olunmuşdur. İstilik energetikasının ekoloji problemlərinə həsr olunmuş elmi nəticələrinə görə M.B.Lomonosov (Sankt-Peterburq), akademik Y.Məmmədəliyev adına medallarla və akademik Həsən Əliyev adına birinci dərəcəli diplomla təltif olunmuşdur.

Kamal müəllim keçmiş İttifaqın Elmlər Akademiyanın Rəyasət Heyətinin qərarı ilə uzun illər SSRİ EA-nın "Suyun kimya və texnologiyası" jurnalının redaksiya heyətinin üzvü olub, hal-hazırda isə yenidən Ukrayna EA tərəfindən nəşr olunan həmin və MEA-nın "Energetika problemləri" jurnallarının redaksiya heyətinin üzvüdür. Onun istilik energetikası üzrə MDB-nin, demək olar ki, bütün aparıcı elm və tədris mərkəzləri ilə sıx əlaqələri olub və hal-hazırda da var.

Kamal müəllim dəfələrlə Beynəlxalq Konqres və Simpoziumlarda, elmi konfranslarda iştirak etmiş və elmi məqalələrdə çıxış etmişdir. Aldığı bəzi elmi nəticələr keçmiş SSRİ-nin Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin qızıl və gümüş medallarına layiq görülmüşdür. O, yaxın və uzaq ölkələrdə tanınmış elmi məktəb yaratmış, 60-a yaxın elmlər namizədi, 4 elmlər doktoru yetişdirmiş və hazırda onun rəhbərliyi altında dissertantlar elmi axtarışlar aparırlar. O, 270-dən artıq elmi əsərin, o cümlədən dörd monoqrafiyanın (onlardan üçü Moskvada (Enerqatomizdat), biri isə 1992-ci ildə İngiltərədə ("Ellis Horvud" nəşriyyatı) nəşr olunmuşdur) müəllifidir. İlkin olaraq Azərbaycan dilində Ali məktəblər üçün istilik energetikası və ekologiya sahəsində beş dərsliyin və iyirmidən artıq ixtiranın müəllifidir.

Onun araşdırdığı problemlər üzrə ETİnin nəticələri təkcə MDB-də deyil, onun hüdudları xaricində də bəyənilməklə yanaşı, istilik energetikası elm və texnikasına çox dəyərli töhfədir.

Elmi nəticələrinə görə XX əsrin görkəmli alimləri sırasında Amerikada tərtib olunmuş ensiklopediyada onun adı da qeyd edilmiş və Amerikanın Biblioqrafik İnstitutunun elmi tədqiqat sahəsində məsləhətçisi seçilmişdir.

Kamal müəllim tanınmış humanist, xeyirxah, çox məhsuldar, bacarıqlı və dünya şöhrətli görkəmli alim olmaqla yanaşı, eyni zamanda, böyük təcrübəyə, yüksək biliyə və nüfuza malik, hörmətə layiq olan pedaqoqdur. Kamal müəllim 12 kitabın, 300-dən çox elmi məqalənin müəllifidir. O, 80 illiyini yüksək məhsuldarlıq şəraitində qeyd edir.

***Kamal müəllimi şanlı 80 illik yubileyi münasibəti ilə təbrik edirik, ona həyatda ən şirin nemət olan cansağlığı, uzun ömür və elmi-pedaqoji fəaliyyətində yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.***

*B.A.Ələsgərov,*
*Beynəlxalq Nobel İnformasiya Mərkəzinin həqiqi üzvü, BNİM-in Qafqaz və Orta Asiya ölkələri üzrə səlahiyyətli nümayəndəsi, elmlər doktoru*

# Pirallahı rayonunda "Bayraq qülləsi" və "Atəşgah abidəsi"nin tikintisi başa çatdırılıb

**Prezident İlham Əliyevin "Bakı şəhəri Pirallahı rayonunun qəsəbədaxili avtomobil yollarının yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən Pirallahı qəsəbəsinin daxilində ümumi uzunluğu 8,5 kilometr olan mərkəzi yolda əsaslı təmir işləri davam etdirilir.**




Pirallahı Rayon İcra Hakimiyyətinin mətbuat xidmətindən bildirilib ki, yolun 12-15 metr enində genişləndirilməsi ilə əlaqədar layihə üzrə tikinti işləri hazırda mərkəzi küçədə aparılır.

S.Vurğun küçəsində 9 mərtəbəli bina istiqamətində yolun hər iki tərəfində və mərkəzi yolun kənarında 29-cu məhəllədən başlayaraq Pirallahı İdman Zalının qarşısınadək yeni hasarın tikintisi isə artıq tamamlanıb. Hasarın başlanğıcında üstündə Azərbaycan Respublikasının dövlət bayrağı və üzərində saat quraşdırılmış hündürlüyü 9,8 metr olan qüllə inşa edilib. Həmçinin Səməd Vurğun küçəsində, mərkəzi yol kənarında, üzərində dekorativ elementlər olan "Atəşgah abidəsi"nin tikintisi başa çatdırılıb.

Bundan əlavə, "Atəşgah abidəsi"nin üzərində Bakı şəhəri gerbinin təsviri quraşdırılıb. Bu abidə tarixi Suraxanı Atəşgahının formasında inşa edilib, o cümlədən hər iki qüllənin eni və uzunluğu 2,2 metr, fasadları isə üzlük ağlay daşları ilə üzlənib.

Qüllələr müasir işıqlandırma sistemləri ilə təchiz edilib. Qüllələrin ətrafından başlayaraq körpüyə qədərki ərazidə yeni salınmış təpələrin yamaclarında 516 metr uzunluğunda estetik görünüşlü taxta hasarlar quraşdırılıb və hazırda bu sahədə işlər davam etdirilir.

Qeyd olunub ki, Pirallahı rayonunda aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri zamanı Azərbaycanın qədim tarixi-memarlıq üslubundan da istifadə edilir.

# FED faiz dərəcəsinin yüksəldilməsi ilə əlaqədar bazarda hər hansı sarsıntı gözləmir

ABŞ-ın Federal Ehtiyatlar Sistemi (FED) faiz dərəcəsinin baza hissəsinin artırılması haqqında qərar ilə əlaqədar bazarlarda sarsıntı gözləmir. Bunu FED-in başçısı Canet Yellen bildirib.

O, jurnalistlərin "Bu qərar bazarlarda hər hansı sarsıntıya səbəb ola bilərmi?" sualına belə cavab verib: "Faiz dərəcələrinin artırılması haqqında qərar iqtisadiyyatda inkişafa nail olduğumuza inam yaradır. O, bazar məzənnələrinə yalnız cüzi təsir göstərə bilər".



ABŞ Federal Ehtiyatlar Sisteminin açıq bazarlar üzrə komitəsi 2016-cı ildə sonuncu iclasının yekunlarına görə, ilk dəfə illik faiz dərəcəsinin baza hissəsini artıraraq, 0,25-0,5 faizdən 0,5-0,75 faizə çatdırıb.

# Enerji sistemi dispetçer qrafikinə uyğun işləyir

"Azərenerji" ASC-nin ictimaiyyətlə əlaqələr və mətbuat xidmətinin rəisi Yəhya Babanlı bildirib ki, qeyri-sabit hava şəraiti və temperaturun kəskin aşağı düşməsi ilə əlaqədar istehlakçıların artan tələbatı və ötürücü xətlərin yüklənməsi, elektrik stansiyaları və şəbəkə avadanlıq-larının sutka ərzində bazis iş rejimində işləməsinə baxmayaraq, "Azərenerji" ASC-nin struktur vahidinə daxil olan qurumlarda hər hansı çətinliklərin yaranması gözlənilmir və bütün imkanlar səfərbər edilib.

ASC-nin enerjinin istehsalı idarəsi stansiyaların daha da keyfiyyətli və dayanıqlı fəaliyyətini təmin etmək üçün bütün müəssisələrində məsul növbətçilər və qəza-bərpa briqadaları fəaliyyət göstərir.

Səhmdar Cəmiyyətin elektrik enerjisinin ötürülməsi idarəsi tərəfindən bütün elektrik verilişi xətlərinə və yarımstansiyalara növbədənkənar baxış keçirilib. Bütün regional enerji şəbəkələri müəssisələri günün tələbinə uyğun gücləndirilmiş iş rejiminə keçib. Eyni zamanda, növbətçi briqadaların sayı artırılıb və onlar müvafiq nəqliyyat vasitələri ilə təmin olunub.

# Strateji Yol Xəritəsinə əsasən sığorta sahəsinin inkişafı üzrə tədbirlər planı hazırlanacaq

Maliyyə Bazarlarına Nəzarət Palatası sığorta sahəsi üzrə aidiyyəti qurumların iştirakı ilə işçi qruplar yaradacaq.

Bu barədə "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"də deyilir.

Sənədə əsasən, işçi qruplar tərəfindən cari vəziyyətin diaqnostikası aparılaraq, qabaqcıl beynəlxalq təcrübə araşdırılmaqla, hər bir sığorta sahəsi üzrə hüquqi, tənzimləyici və institusional çərçivənin formalaşdırılması istiqamətində görüləcək işlər və hər bir sığorta sahəsi üçün əməliyyat modeli müəyyənləşdiriləcək.

Sığorta sistemində məlumatların toplanması, məlumat sistemləri və mübadilə prosesləri maliyyə xidmətləri sektorunda bu sahə üzrə müvafiq təşəbbüslər kontekstində nəzərdən keçiriləcək. Məsələn, müxtəlif risk amilləri nəzərə alınmaqla, kənd təsərrüfatı sığortası məhsulları üzrə qiymətlərin təyin olunması üçün məlumat sisteminin yaradılması nəzərdən keçiriləcək.




Hər bir sığorta sahəsinin inkişafı üzrə tədbirlər planı hazırlanacaq və icrasına başlanılacaq. İşçi qrup müəyyən edilmiş təşəbbüslərə uyğun olaraq, sektorun inkişaf səviyyəsini müntəzəm şəkildə qiymətləndirəcək. Bundan əlavə, sığorta sektorunda əlavə sahələrə diqqət yetirilməsi imkanlarını, eləcə də sığorta siyasətindəki zəruri dəyişiklikləri davamlı şəkildə qiymətləndirəcək.

Yeni sığorta xidmətlərinin yaradılması maliyyə vasitəçiliyinin dərinləşməsinə və inklüzivliyin artmasına təkan verəcək. Kənd təsərrüfatı sektorunda risklərin sığortalanması maliyyə resurslarına çıxış imkanlarını genişləndirəcək və sektorun artımını dəs-təkləyəcək. Sığorta penetrasiyasının (sığorta haqlarının qeyri-neft ümumi daxili məhsula (ÜDM) nisbətinin) 1,4 faizə çatması hədəflənir.

Prioritetin 2020-ci ildə real ÜDM-ə təsirinin 85 milyon manat birbaşa və 40 milyon manat dolayı olmaqla, ümumilikdə 125 milyon manat olacağı gözlənilir. ÜDM-ə müsbət töhfə sığorta sektorunun gəlirlərinin artması və nəticədə penetrasiya səviyyəsinin yüksəlməsi ilə izah olunur. Bu prioritetin həyata keçirilməsi nəticəsində 1600 yeni iş yerinin yaradılması gözlənilir.

# OPEC: Neft bazarında tarazlıq 2017-ci ilin ikinci yarısında yaranacaq

Neft ixrac edən ölkələrin təşkilatı (OPEC) gözləyir ki, 2017-ci ildə neftə tələbat gündəlik 32,6 milyon barrel təşkil edəcək. OPEC-in aylıq icmalında qeyd olunur ki, kartel üzvü olmayan ölkələrin gündəlik hasilatı 0,6 milyon barrel azaltması və OPEC-in neftinə yüksək tələbat bazarda tarazlığın 2017-ci ilin II yarısında bərpa olunmasına kömək göstərəcək.

OPEK dünyanın neftə olan tələbatının artım proqnozunu 2016-cı ildə gündəlik 10 min barrel (94,41 milyon barrelə qədər) qaldırıb. Yenilənən proqnoza uyğun olaraq, 2015-ci illə müqayisədə 2016-cı ildə neftə tələbat gündəlik 1,24 milyon barrel artacaq.

Abuzər Xələfov -85

# Elmə həsr edilmiş ömür

**BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü, Əməkdar elm xadimi, Bakı Dövlət Universitetinin fəxri professoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasının müdiri, «Şöhrət» ordenli, tarix elmləri doktoru, professor Abuzər Alı oğlu Xələfov Azərbaycan milli kitabxanaşünaslıq elminin banisidir. Respublikamızda kitabxanaçılıq, biblioqrafiya elmlərinin və ali kitabxanaçılıq təhsilinin yaranması və formalaşması onun adı ilə bağlıdır.**



Abuzər Alı oğlu Xələfov 25 dekabr 1931-ci ildə Qərbi Azərbaycanda - ulu Göyçə mahalının Krasnoselo rayonunun Cil kəndində kəndli ailəsində anadan olmuşdur. O, natamam orta təhsilini burada almış, Böyük Vətən müharibəsi illərində doğma kənddəki kolxozda işləyə-işləyə təhsilini davam etdirmişdir.

1950-ci ildə həmin rayonun Toxluca kənd orta məktəbini bitirən Abuzər Xələfov Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olur. Hələ tələbəlik illərində özünün qeyri-adi elmi qabiliyyəti ilə başqalarından fərqlənən bu gənc tələbə elmi konfranslarda maraqlı məruzələrlə çıxış edir, dəfələrlə fəxri fərmanlarla təltif olunur.

Əla oxuması və ictimai fəallığı ilə diqqəti cəlb etdiyinə görə A.A.Xələfov ali təhsilini başa çatdıran kimi Bakı Dövlət Universitetində müəllim vəzifəsində saxlanılır.
1955-1978-ci illərdə müəllim, baş müəllim, dosent vəzifələrində çalışır.

A.A.Xələfov həmin illəri həyatının mühüm dövrü adlandırır. Belə ki, gənc mütəxəssis məhz o dövrdə tədqiqatçı alim kimi özünün ustalığını artırır, elm və tədris prosesinə rəhbərlik vərdişlərinə yiyələnir, bir sözlə, hərtərəfli təkmilləşir. A.Xələfovun xoşbəxtliyi onda idi ki, bu illərdə o, Yusif Məmmədəliyev, Əliheydər Qarayev, Şəfaət Mehdiyev, Faiq Bağırzadə, Məmməd Arif Dadaşzadə, Cəfər Xəndan, Feyzulla Qasımzadə, Məmməd Cəfər Cəfərov, Həmid Araslı, Əli Sultanlı, Mir Cəlal Paşayev, Məmmədhüseyn Təhmasib, Əliheydər Qəhrəmanov, Mehdixan Vəkilov, Abbas Zamanov, Pənah Xəlilov, Zülfəli İbrahimov və başqaları kimi görkəmli alim-pedaqoqlar dəstəsi ilə əhatə olunmuşdu və onların təsiri ilə formalaşıb yetkinləşirdi. Bu tanınmış şəxsiyyətlərdən hər biri gənc mütəxəssislərə kömək göstərməyə hər an hazır olan geniş dünyagörüşlü, yüksək səviyyəli, qayğıkeş insan idi.

A.A.Xələfovun işgüzar və səmərəli fəaliyyəti nəticəsində 1962-ci ildə BDU-nun kitabxanaçılıq şöbəsi müstəqil fakültəyə çevrilir və o, yeni yaradılmış fakültənin ilk dekanı seçilərək 25 il bu vəzifədə çalışır. 1963-cü ildə eyni zamanda kitabxanaşünaslıq kafedrasının müdiri seçilən A.A.Xələfov bu günə kimi fasiləsiz olaraq həmin vəzifəni uğurla yerinə yetirir.

Abuzər Xələfov 1961-ci ildə Azərbaycanda kitabxana işi üzrə ilk namizədlik, 1975-ci ildə isə ilk doktorluq dissertasiyaları müdafiə edir, professor elmi adı alır.

Sevindirici haldır ki, A.A.Xələfov Sovetlər Birliyi ərazisində kitabxana işi üzrə doktorluq dissertasiyası müdafiə etmiş və tarix elmləri doktoru elmi dərəcəsi almış ilk alimdir. Onun elmi rəhbəri isə Azərbaycan EA-nın müxbir üzvü, tanınmış alim, qayğıkeş insan Zülfəli İbrahimov olmuşdur.

Azərbaycanda kitabxana işi sahəsində ilk sanballı elmi-tədqiqatlar aparmış, ilk dəfə namizədlik və doktorluq dissertasiyaları müdafiə etmiş Abuzər Xələfov bununla da həmişəlik ölkəmizdə kitabxanaşünaslıq elminin banisi statusunu qazanmışdır.

A.Xələfovun xidmətləri bir sıra dövlət mükafatları ilə dəyərləndirilmişdir. O, 1969-cu ildə kadr hazırlığı sahəsində xidmətlərinə görə "Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi" fəxri adına, 2001-ci ildə isə kitabxanaşünaslıq elminin inkişafında böyük xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş ilk kitabxanaşünas alimdir. A.Xələfov 2000-ci ildə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin fərmanı ilə elm və təhsil sahələrindəki xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Bakı Dövlət Universiteti Elmi Şurasının 9 mart 2016-cı il tarixli iclasının qərarı ilə ilk dəfə Kitabxanaçılıq-informasiya fakültəsinin yaradıcısı, Kitabxanaşünaslıq kafedrasının müdiri, əməkdar elm xadimi, professor Abuzər Alı oğlu Xələfova "Bakı Dövlət Universitetinin fəxri professoru" adı verilmişdir.

Mənalı ömrünün 85-ci pilləsində olan prof. A.A.Xələfov bu və digər keyfiyyətləri ilə yanaşı, həm də yüksək mənəviyyatı, xeyirxahlığı ilə fərqlənən insanlardandır. Onun həyat yoluna nəzər salarkən - nəcib insan, fədakar alimliyi ilə yanaşı, xalqını, elini, yurdunu məhəbbətlə sevən həqiqi vətəndaş olduğunu da aydın görmək olur.

O, yüksək elmi-praktiki potensiala malik alim olmaqla yanaşı, yüksək vətəndaşlıq, vətənpərvərlik hissi ilə yaşayıb-yaradan, kitabxanaçılıq təhsilinin müasir səviyyədə inkişafına yorulmadan gərgin əmək sərf edən, gənc nəslin təlim-tərbiyə işlərində, onların yüksək vətənpərvərlik ruhunda tərbiyə olunmalarını xüsusi diqqətdə saxlayan qayğıkeş rəhbər kimi kadrların düzgün seçilib yerləşdirilməsində də xüsusi rol oynamaqdadır. İnsanlarla ünsiyyət bacarığı, təmkini, tələbkarlığı, uzaqgörənliyi çoxları üçün örnək sayıla bilər. Bu keyfiyyətlər Abuzər müəllimin yüksək təvazökarlığında tamamlanır. Bu gün çoxları onu hərtərəfli elmi biliyi və məlumatı, dərin düşünmə qabiliyyəti və güclü yaddaşı, maraqlı söhbətləri və nəsihətləri ilə böyük təsir bağışlayan insan kimi tanıyır.

Ömrünün müdriklik çağını yaşayan ptof. A.A.Xələfov bütün varlığı və ruhu ilə yaradıcı insandır. O, bu gün də daxildən gələn tükənməz enerji ilə çalışır, qarşıya qoyduğu saf və ali məqsədlərə çatmaq üçün hər cür zəhmətə qatlaşır. Yüksək alimlik və tədqiqatçılıq keyfiyyəti onun fitrətindən, məqsədə doğru inamla irəliləmək, hədəfə yetişmək əzmindən qaynaqlanır. Bütün bu keyfiyyətlər isə onun daha böyük həyat və elmi yaradıcılıq uğurlarına möhkəm zəmin yaradır

*Şəfəq İslamova,*
*Bakı Dövlət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru,*
*Pərviz Kazımi, dosent*

# Azərbaycan neft ixracını artırıb, qaz ixracını azaldıb

Azərbaycan 2016-cı ilin yanvar-oktyabr aylarında 29 mln. 680,5 min ton neft ixrac edib ki, bu da ötən ilin analoji dövrünün göstəricisindən 0,8% çoxdur. Bu barədə hökumətdən məlumat verilib.

"Hesabat dövrü ərzində Azərbaycandan ixrac olunan neftin ümumi dəyəri 8 mlrd. 495 mln. 619,3 min dollar (azalma 21,5%) təşkil edib.

2016-cı ilin yanvar-oktyabr aylarında ixrac edilmiş 5 mlrd. 149 mln. 437,9 min dollar məbləğində neftin bəyan edilmiş həcmi 17 mln. 24,7 min ton təşkil edib.

Xəbər verildiyi kimi, 2015-ci ildə Azərbaycandan 32 mln. 520 min 401,97 ton neft ixrac olunub.



**QAZ İXRACI 3% AZALIB**

Azərbaycan 2016-cı ilin yanvar-oktyabr aylarında 6 mlrd. 362,3 mln. kubmetr təbii qaz ixrac edib ki, bu da 2015-ci ilin analoji dövrünün göstəricisindən 3,1% azdır

"Hesabat dövründə Azərbaycandan ixrac olunan qazın ümumi dəyəri 1 mlrd. 51 mln. 45,4 min dollar (azalma 26,5%) təşkil edib", - deyə məlumatda qeyd edilir.

Hesabat dövründə sadələşdirilmiş gömrük bəyannamələri üzrə rəsmiləşdirilmiş 744 mln. 532,8 min dollar dəyərində 4 mlrd. 983,8 mln. kubmetr qaz ixrac edilib.

Ötən il 8 mlrd. 405 mln. 244,65 min kubmetr qaz ixrac olunub.

Hazırda Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən qaz Rusiya, İran və Gürcüstana, eləcə də "Şahdəniz" konsorsiumu tərəfindən Bakı-Tbilisi-Ərzurum qaz kəməri ilə Gürcüstana və Türkiyəyə ixrac edilir.

# Azərbaycan Rusiyadan quş və quş əti idxalına məhdudiyyət qoydu

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (BEB) 24 noyabr və 9 dekabr 2016-cı il tarixlərində yaydığı rəsmi məlumatlarda Rusiya Federasiyasının Kalmıkya Respublikasının Yaşaltinski rayonunda iki məntəqədə və Həştərxan vilayətinin Xarabalinski rayonunda bir məntəqədə ev quşları arasında yüksək patogenli quş qripi (H5) xəstəliyinin yayılması barədə məlumat daxil olmuşdur.

Bununla əlaqədar Azərbaycan Respublikası ərazisinin başqa dövlətlərdən keçə biləcək yoluxucu və ekzotik xəstəliklərdən qorunması məqsədilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti tərəfindən yüksək patogenli quş qripi xəstəliyi qeydə alındığı üçün Rusiyanın Kalmıkya Respublikasından, Həştərxan vilayətindən, habelə risk zonasına daxil olan Dağıstan Respublikasından, Volqoqrad, Rostov, Stavropol vilayətlərindən və Çerkessk bölgəsindən diri quş və quşçuluq məhsullarının idxalına müvəqqəti olaraq məhdudiyyət qoyulması haqqında əmr imzalanmışdır.



Rusiyanın Kalmıkya Respublikasında və Həştərxan vilayətində ev quşları arasında yayılmış yüksək patogenli quş qripi (H5) xəstəliyi ilə bağlı ölkəmizin bu xəstəlikdən qorunması üçün zəruri baytarlıq-sanitariya tədbirlərinin görülməsi barədə Dövlət Baytarlıq Nəzarət Xidmətinin müvafiq bölmələrinə tapşırıqlar verilmişdir.

Əmrdə dövlət baytarlıq nəzarətində olan digər yüklərin idxalı məsələsinə Rusiya Federasiyasının Dövlət Baytarlıq Xidmətinin yükün çıxarıldığı ərazinin epizootik vəziyyəti və məhsulun sağlamlığı haqqında rəsmi arayışı olduğu təqdirdə baxılması qeyd olunmuşdur.

Dövlət Baytarlıq Nəzarəti Xidməti quşçuluq təsərrüfatlarının rəhbərlərinə və əhaliyə tövsiyə edir ki, quşları baytarlıq-sanitariya tələblərinə riayət etməklə qapalı şəraitdə saxlasınlar.

# Azərbaycanda adambaşına 17,9 m² mənzil düşür



Azərbaycan əhalisinin mənzil təminatı yaxşılaşdırılacaq.

Bu barədə Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə deyilir.

Qeyd olunur ki, əhalinin sosial rifahını əks etdirən göstəricilərdən biri də mənzillə təminatdır. Hazırda Azərbaycanda adambaşına düşən orta mənzil fondu 17,9 m² təşkil edir ki, bu da MDB (20 m²) və Şərqi Avropa ölkələri (30 m²) üzrə orta göstəricilərdən azdır.

2016-2020-ci illərdə strateji yol xəritəsinin həyata keçirilməsi zamanı sosial təsirlər qiymətləndiriləcək, iş yerlərinin yaradılması ilə yanaşı, mənzil təminatının yaxşılaşdırılması, müasir tələblərə uyğun təhsil və səhiyyə xidmətlərinin göstərilməsinə dəstək verən sistemin inkişafı, kommunal xidmətlərin təkmilləşdirilməsi və ünvanlı sosial yardım sistemindən reabilitasiyaya keçidin təmin edilməsi yolu ilə yoxsulluğun azaldılmasına səylər göstəriləcək.

2016-2020-ci illərdə strateji yol xəritəsinin həyata keçirilməsi zamanı sosial təsirlər qiymətləndiriləcək, iş yerlərinin yaradılması ilə yanaşı, mənzil təminatının yaxşılaşdırılması, müasir tələblərə uyğun təhsil və səhiyyə xidmətlərinin göstərilməsinə dəstək verən sistemin inkişafı, kommunal xidmətlərin təkmilləşdirilməsi və ünvanlı sosial yardım sistemindən reabilitasiyaya keçidin təmin edilməsi yolu ilə yoxsulluğun azaldılmasına səylər göstəriləcək.

Yol xəritəsində bildirilir ki, şəhər yerlərində uyğun mənzil təminatı seçimləri Azərbaycanın kənd yerlərində olan hazırkı işçi qüvvəsinin şəhər yerlərindəki məşğulluq imkanlarından bəhrələnməsinə şərait yaradacaq. Bu, nəinki yoxsulluq səviyyəsini azaltmağa kömək edər, hətta regionlar arasında gəlir bərabərsizliyinin azalmasına gətirib çıxara bilər. Mənzil təminatı artan şəhər əhalisinin tələblərini də əhatə edəcək və bu əhali qrupunun xüsusi çəkisi hazırkı təxminən 55 faizdən 70-75 faizədək artacaq. Daha yaxşı məşğulluq imkanlarına görə şəhərlərə axın və kənd yerlərində daha yüksək gəlirli məşğulluq imkanlarının artımı nəticəsində gəlirlərdəki bərabərsizlik azalacaq. 2025-ci ildən sonra Bakı ilə ölkənin digər regionları arasındakı gəlir fərqi adambaşına təxminən 50 faizdən 40 faizədək enəcək.

# Qeyri-neft məhsullarının ixracı kəskin azalıb

Manatın ucuzlaşdırılmasına baxmayaraq qeyri-neft məhsullarının ixracı artmır. 2016-cı ilin yanvar-oktyabr aylarında qeyri-neft məhsullarının ixracı 2015-ci ilin eyni dövrünə nisbətən 20,6 faiz azalaraq 973,8 milyon dollar təşkil etmişdir. Bu barədə Dövlət Statistik Komitəsindən bildirilib.

Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, 2016-cı ilin yanvar-oktyabr aylarında ölkənin xarici ticarət dövriyyəsi 14 milyard 153,7 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 7 milyard 195,7 milyon dollarını və ya 50,8 faizini ölkədən ixrac olunmuş məhsulların, 6 milyard 958,0 milyon dollarını (49,2 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 237,7 milyon dollar məbləğində müsbət saldo yaranmışdır.

2015-ci ilin eyni dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsi müqayisəli qiymətlərlə 13,4 faiz, o cümlədən ixrac 16,9 faiz, idxal isə 8,2 faiz azalmışdır.

Ticarət dövriyyəsinin 36,3 faizi Avropa İttifaqı ölkələrinin, 15,2 faizi MDB üzvü ölkələrinin, 48,5 faizi isə digər ölkələrin payına düşmüşdür.

İdxalın ümumi dəyərinin 27,1 faizi Avropa İttifaqı ölkələrinin, 23,8 faizi MDB üzvü ölkələrinin, 49,1 faizi isə digər ölkələrin payına düşmüşdür.

İxracın ümumi dəyərinin 45,2 faizi Avropa İttifaqı ölkələrinin, 6,9 faizi MDB üzvü ölkələrinin, 47,9 faizi isə digər ölkələrin hesabına formalaşmışdır.

# Azərbaycanda ucuz mikrosığortalar satılacaq

Son illərdə sığorta sektorunun maliyyə dərinliyinin artmasına baxmayaraq, Asiya İnkişaf Bankının maliyyə inklüzivliyi üzrə sorğusunun nəticələrinə görə, müştərilərin 58 faizi sığorta xidmətləri barədə məlumatlı deyil və bu müştərilərin təxminən yarısının (49 faiz) sığorta şirkətlərinə inamı aşağıdır.

Bu barədə "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə bildirilir.

Yol Xəritəsində qeyd edilir ki, bu hal sığorta fəaliyyətini məhdudlaşdırmaqla, bir çox müştəriləri, kiçik və orta sahibkarlıq subyektlərini yüksək riskə məruz qoyur. Proseslərin sadələşdirilməsi və aşağı xərcli mikrosığorta məhsullarının tətbiqi istehlakçıların, kiçik və orta sahibkarlıq subyektlərinin risklərini idarə etmək imkanlarını artıra bilər.

**MİKROSIĞORTA NƏDİR?**

Mikrosığorta bazarının inkişafı aşağı gəlirli ev təsərrüfatlarına daha az sığorta haqqı müqabilində sığortalanma imkanı yaradır. Qanunvericilikdə mikrosığorta mexanizminə dair müddəa nəzərdə tutulmamışdır və bu sığorta növü inkişaf etməmişdir.

"Hərtərəfli normativ hüquqi çərçivə mikrosığorta bazarının inkişafı üçün vacib amildir. Bu zaman effektiv nəzarətin həyata keçirilməsi ilə yanaşı, mikrosığorta təklifinin formalaşdırılması və xidmətin effektiv şəkildə ev təsərrüfatlarına çatdırılması təşviq olunmalıdır",- Yol Xəritəsində bildirilir.



**QEYRİ-KOMMERSİYA ƏSASLI SIĞORTA – MÜŞTƏRƏK SIĞORTA**

Azərbaycanda fəaliyyət göstərən sığorta şirkətləri mövcud qanunvericiliyə əsasən "ənənəvi", yəni kommersiya əsaslı sığorta fəaliyyətini həyata keçirsə də, qeyri-kommersiya əsaslı müştərək sığorta məhsulu təklif etmirlər. Ənənəvi sığorta riskin ötürülməsinə, əməkdaşlıq sığortası isə risklərin bölüşdürülməsinə əsaslanan sığorta münasibətləri sistemidir. Azərbaycanda qeyri-kommersiya əsaslı əməkdaşlıq sığortasının formalaşdırılmasına ehtiyac vardır.

# Aqrar sahədə modernləşmə yeni iqtisadi inkişaf modelinin formalaşmasında əsas vasitədir

*(əvvəli ötən sayımızda)*

Azərbaycanda aqrar məsləhət xidmətini inkişaf etdirmək üçün əsas şərt aqrar istehsalın praktikasından əldə edilən və sistemləşdirilən informasiyadır ki, sonradan bu informasiyadan mütəxəssisləri öyrətmək üçün istifadə edilə bilər.

Aqrar sahənin modernləşdirilməsində başlıca vəzifələrdən biri də istehsal-kommersiya istiqamətli strukturlaşmanın genişlənməsidir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsal edən təsərrüfat subyektləri kommersiya fəaliyyətini həyata keçirmək üçün iqtisadi cəhətdən sərbəst olmalıdır.

Kənd təsərrüfatı nəinki ərzaq məhsulları istehsal etməli və sənaye üçün xammal verməlidir, eyni zamanda, ictimai əhəmiyyətli nemətlər də yaratmalıdır. Bu aşağıdakı istiqamətləri əhatə etməlidir:

- ölkənin ərzaq təhlükəsizliyinin daxili potensial hesabına maksimum ödənilməsi;
- daim ekoloji mühitin qorunması və tarazlığın təmin edilməsi;
- aqrolandşaftın qorunması və bərpası;
- iri, orta və kiçik təsərrüfat tiplərinin xas olduğu bazar mühitinin yaradılması;
- yararlı torpaqlardan səmərəli istifadənin təmin edilməsinə nəzarətin gücləndirilməsi;
- sığorta sisteminin kənd təsərrüfatında genişləndirilməsi və bunun modernləşdirməyə xidmət etməsi.

Bir çox inkişaf etmiş ölkələrdə aqrar məhsullar aqrar elm və istehsal birləşməsində hazırlanır. Respublikamızda da bunu həyata keçirmək dövlətin əsas vəzifələrindən biri olmalı, aqrar sənaye istehsalı ilə elmi-tədqiqat müəssisələrinin qarşılıqlı münasibətləri təşkil edilməlidir. Eyni zamanda, idarəetmə sistemində də müasir tələblərə cavab verən kadr potensialı formalaşmalıdır. Bu işləri isə müasir idarəedənlər - menecerlər həyata keçirə bilər. ABŞ, Almaniya, Fransa və s. ölkələrdə dövlət aqrar sahə üçün mütəxəssislərin hazırlanmasına kifayət qədər vəsait xərcləyir. Məqsəd aqrar sənaye məhsulunun rəqabətqabiliyyətli və innovasiyalı olmasını təmin etməkdir. Bunun üçün dövlət sektorunun aqrar sahədə fəaliyyət problemlərinin bir sıra vacib vəzifələri - dövlət sektoruna aid aqrar müəssisə və təşkilatların fasiləsiz fəaliyyəti üçün maliyyə vasitəsi ilə təminatı; aqrar istehsalda dayanıqlı artımın təmin olunması; aqrar sahənin istehsal strukturunda proqressiv yenidənqurmanın təşkil edilməsi, aqrar sənaye istehsalının texniki-texnoloji baza əsasında modernləşdirilməsi; yerli istehsalçıların məhsullarının rəqabətqabiliyyətli dərəcəsinin yüksəldilməsi; sahələrarası mübadilədə prioritetin təmin olunması; müxtəlif əhali qrupları arasında gəlirlərin ədalətli bölgüsünün təşkili və s. müəyyən edilməlidir.

Özünü qeyri-neft sektoru kimi göstərən bu sahədə inkişafın davamlı olması üçün dövlətin iqtisadi rolu mütləq yeni keyfiyyət müstəvisində reallaşmalıdır. Yəni, problemin həllinə dövlət sektoru çərçivəsində yanaşılması məqsədəuyğundur. Çünki aqrar sahənin inkişafında dövlətin rolu, sadəcə, vəzifə və funksiya xarakteri daşımamalı, həmçinin iqtisadi bir subyekt kimi ümumi təsərrüfat mexanizminin işləməsində faydalanan tərəf kimi çıxış etməlidir. Yalnız belə halda rəqabətqabiliyyətli mühitin inkişafı təmin edilər, innovativ-texnoloji yeniliklərdən istifadə imkanları genişlənər.



Qeyd edək ki, Azərbaycanda fermerlərin torpaq resurslarından istifadə imkanları da məhduddur və məqbul səviyyədə deyil. 1996-cı ildən sonra, Azərbaycanda torpaq islahatlarının həyata keçirilməsindən bu günə kimi torpaq sahələrinin 19,1%-i şəxsi mülkiyyətdədir. Bu gün hər bir fermerə 1-3 hektar torpaq sahəsi düşür. Bu isə kənd təsərrüfatında məhsul istesalı üçün sərfəli hesab edilə bilməz. Çünki aqrar sahədə istehsalın həcminin kiçik olması nəticəsində kommersiya bankları maliyyələşdirmənin riskli olması ilə əlaqədar olaraq kreditlərin verilməsində problemlər yaradır.

Kənd təsərrüfatında özəl mülkiyyət münasibətlərinin inkişafı nəticəsində ölkə əhalisinin əsas ərzaq məhsullarına olan tələbatının əhəmiyyətli hissəsi, yəni 80-85%-i daxili istehsal hesabına ödənilir. 2015-ci ildə ərzaq istehsalı 2,9% artmışdır. İqtisadiyyatın mühüm sahəsi olan kənd təsərrüfatının inkişafını bu tədbirlər stimullaşdırır: ölkə rəhbərliyi tərəfindən məqsədli proqramların, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi dövlət proqramlarnın qəbul edilməsi və reallaşdırılması, sahibkarlığın inkişaf etdirilməsinin öncül istiqamətinin müəyyənləşdirilməsi və aqrar bölməyə dövlət büdcəsində nəzərdə tutulan dövlət dəstəyi. Dövlət malik olduğu iqtisadi və inzibati resurslardan səmərəli istifadə edərək, daxili bazarı qorumaqla daxili bazarın struktur elementlərinin fəaliyyətlərinin səmərəliliyini təmin etmiş olur.

Kənd təsərrüfatında modernləşmənin həyata keçirilməsi istiqamətində "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" üzrə Kənd Təsərrüfatı Nazirliyinə həvalə edilmiş tədbirlər də xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu tədbirlərə aiddir: kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması və emalı sahələrində sahibkarlıq fəaliyyətinin dəstəklənməsi; iri fermer təsərrüfatlarının yaradılmasının dəstəklənməsi; kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətliliyinin artırılması məqsədilə emal müəssisələrində mütərəqqi texnologiyaların tətbiqinin dəstəklənməsi; aqrotexservis xidmətləri şəbəkəsinin genişləndirilməsinin dəstəklənməsi, kənd təsərrüfatının texnikaya, mineral gübrələrə və pestisidlərə olan tələbatının təmin edilməsinin yaxşılaşdırılması; cins heyvandarlıq təsərrüfatlarının yaradılmasının dəstəklənməsi; kənd təsərrüfatı məhsulları istehsalçılarına məxsus, eroziyaya uğramış və şoranlaşmış torpaqların texniki və bioloji rekultivasiya tədbirlərini həyata keçirməklə yenidən torpaq dövriyyəsinə qaytarılması üçün müvafiq tədbirlərin həyata keçirilməsi istiqamətdə işlərin davam etdirilməsi; baytar-sanitar, texniki nəzarət, sort-sınaq, fitosanitar, toxumçuluq, tingçilik və damazlıq işlərinin dövlət tərəfindən dəstəklənməsi; fermerlərin idarəetmə vərdişlərinin və biliklərinin artırılması məqsədi ilə təlimlərin, təcrübə mübadiləsinin və elmi tədqiqatların həyata keçirilməsinin dəstəklənməsi.

Bu məqsədlə 2016-cı ildə müxtəlif bitki sortlarının toxumlarının istehsalı və saxlanılması üzrə ixtisaslaşmış müəssisələrin tikintisi, maşın və avadanlıqlarla təmin olunması üçün Kənd Təsərrüfatı Nazirliyinə Azərbaycan Resublikasının 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 12 mln. man ayrılmışdır. Bundan başqa, kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına görə verilən yardım, habelə "Aqrolizinq" ASC və digər hüquqi və fiziki şəxslər tərəfindən mineral gübrələrin güzəştlə satılmasına görə verilən subsidiyanın təkrar (aralıq) əkinlər aparan fiziki və hüquqi şəxslərə də ödənilməsi mexanizmi yaradılmışdır.

Kənd təsərrüfatı özünün sosial və iqtisadi həyatda oynadığı roluna görə, xüsusən də iqtisadi inkişafın təkanverici amili və qida təhlükəsizliyinin təminatçısı kimi xüsusi önəm daşıyır və bu sahənin dövlət dəstəyinə daha çox ehtiyacı olduğu görünür. Bu baxımdan Azərbaycanda aqrar sahədə modernləşməyə keçid üçün aqrar siyasətin əsas istiqamətləri kimi aşağıdakıları göstərmək olar:

1. Müasir avadanlıqların köməyi ilə kənd təsərrufatında məhsuldarlığın artırılması;
2. Kənd təsərrufatı ilə məşğul olan əhalinin normal yaşayış səviyyəsinin təmin olunması;
3. Aqrar sahə ilə bağlı bazarın sabitləşməsi;
4. Sahibkarlara müntəzəm təchizata zəmanət verilməsi;
5. İstehlakçılar üçün münasib qiymətlərin təmin olunması.

*Raibə Cəfərova,*
*ADAU-nun dosenti*
*Yeganə Abbasova, dos.əv.*

# SOCAR-ın reytinqi təsdiqləndi




Standard & Poor's" beynəlxalq reytinq agentliyi Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) korporativ kredit reytinqini yenidən "BB" səviyyəsində təsdiq edib. Reytinq üzrə proqnoz isə "neqativ" kimi qiymətləndirilib.

"S&P" reytinq agentliyinin rəsmi veb-saytında verilən xəbərə görə, SOCAR-ın təmin olunmamış prioritet borcları üzrə reytinqi də "BB" səviyyəsində təsdiqlənib.

Reytinqlə bağlı hesabatı "S&P"-nin Moskva bürosu yayıb.

# AZAL qiymətləri 20 faizədək endirdi

"Azərbaycan Hava Yolları" (AZAL) Yeni il ərəfəsində yeni aksiya barədə elan edir.




Şirkətdən daxil olmuş məlumata görə, Bakıdan/Bakıya aşağıdakı istiqamətlər üzrə uçuşlara 15 dekabr 2016-cı il tarixindən 15 yanvar 2017-ci il tarixinə kimi gediş-dönüş aviabileti alarkən 20 faizədək endirim tətbiq olunacaq: London, Milan, Berlin, Paris, Praqa, Tel-Əviv, Pekin, Dubay və Nyu-York. Uçuş tarixləri: 15 yanvar - 15 mart 2017-ci il.

Aviabiletləri şirkətin www.azal.az saytında bronlaşdırmaq, AZAL-ın kassalarında və rəsmi agentliklərdən əldə etmək mümkündür.

# Mobil operatorlar 750 milyon manata yaxın gəlir əldə edib



2016-cı ilin yanvar-noyabr ayları ərzində informasiya və rabitə müəssisələri 1 milyard 448 milyon manatlıq xidmət göstərib ki, onun da 72,5%-i əhali tərəfindən istehlak olunub.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2015-ci ilin eyni dövrü ilə müqayisədə informasiya və rabitə xidmətlərinin dəyəri real ifadədə 4,4% artıb, bu sahədə əldə edilmiş gəlirin 80,6%-i qeyri-dövlət sektorunun payına düşüb.

Xidmətlərdən əldə edilən gəlirin 51,6%-i və ya 747,7 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşıb.

# "Qala Həyat" kapitalını artırır

"Qala Həyat" Sığorta Şirkəti nizamnamə kapitalını 2,86 milyon manat artırır.

12 dekabr 2016-cı il tarixində Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən "Qala Həyat" Sığorta Şirkəti ASC-nin hər birinin nominal dəyəri 2860 (iki min səkkiz yüz altmış) manat olan 1000 (min) ədəd adi səhmlərin əlavə buraxılışı AZ1006008226 qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınıb.

Səhmlər qapalı yerləşdirmə üsulu ilə yerləşdiriləcək.

QALA Həyat
Sığorta şirkəti

## GƏNC TƏDQİQATÇININ TRİBUNASI

# SƏNAYE PARKLARI İQTİSADİYYATIN YENİ MÜSTƏVİSİNDƏ

*(əvvəli 11-17 noyabr 2016-cı il tarixli sayımızda)*

Ölkəmizdə yaradılan Sənaye parkları haqqında qısa məlumat verdikdən sonra onların əhəmiyyətindən söz açaq. Parklar adətən dəmiryolu şəbəkəsinə, hava limanına, dəniz və ya çay limanına, yaxud şose şəbəkəsinə yaxın ərazilərdə tikilir. İlk olaraq biznes mühitinin yaxşılaşdırılmasında Parklar mühüm əhəmiyyətə malikdir və sahibkarlar burada torpaq əldə etmək üçün müraciət etmək, müvafiq ödəniş həyata keçirmək, kommunal xidmətlərə giriş imkanı əldə etmək, tullantıların emalı sistemlərini tikdirmək, yerli hakimiyyət orqanlarıyla bürokratiya halları kimi problemlərlə üzləşmirlər.

Sənaye Parklarının ölkə iqtisadiyyatına əhəmiyyətli təsirlərindən biri də inflyasiyanın bir rəqəmdə qorunub saxlanılmasına kömək etməsidir. Bu, ümumi iqitisadiyyatın inkişafına müsbət təsir etməklə ölkənin iqtisadi potensialının artmasına səbəb olacaq. Parkların fəaliyyəti inflyasiya ilə sıx əlaqədə olub, bir-birlərindən təsirsiz ötüşmürlər. İki rəqəmli inflyasiyaya malik iqtisadiyyatda Parkların fəaliyyəti çətinləşir və bir çox hallarda zərərlə iqtisadi fəaliyyət göstərirlər. Bu da Parkların həyatda qalmasına təhlükə yaradır. Göründüyü kimi, inflyasiya ilə Parkların fəaliyyəti zəncirvari əlaqədardır və dövlət inflyasiyanın bir rəqəmli olaraq qorunmasına çalışmalıdır. Burada Parklarda daxili bazar üçün ucuz və keyfiyyətli məhsullar istehsal edərək inflyasiyanın bir rəqəmli olmasına kömək edəcək.



Parklar ümumi iqtisadiyyatın dirçəldilməsi ilə yanaşı, daxili bazarların qorunub saxlanılmasında əvəzsiz rola malikdirlər. Parklarda istehsal olunan məhsullar yerli məhsullar kimi daxili bazarlara yönəldilərək xarici məhsulların daxili bazardan sıxışdırlmasına səbəb olacaq. Bu, yerli istehsalın artırılması ilə yanaşı, daxili bazarlarda yerli məhsulların alış qabiliyyətini artaraq Parkların iqtisadi fəaliyyətini genişləndirəcək.

Ölkəmiz istər sənayedə, istərsə də kənd təsərrüfatında bir neçə məhsullarla özünü tam təmin edə bilmir. Bu baxımdan Sənaye Parkları özünütəminetmə səviyyəsini təmin edərək, gələcəkdə bunun artmasına səbəb olacaqdır. Bu isə ölkədən valyutanın xaricə axınını dayandıraraq, yerli istehsala yönəldəcək və büdcəyə əlavə vəsaitlər gətirəcək. Özünütəminetmə səviyyəsinin yüksəldilməsində Parklar yerli istehsalçıları daha da həvəsləndirəcək və onların istehsal gücünü artıracaq. Beləliklə, iqtisadiyyat xarici iqtisadi güclərdən asılı olmayaraq özünütəminetmə ilə dünya bazarına çıxış əldə edərək, ölkəmiz bir iqtisadi gücə çevriləcəkdir.

Regionlarda torpaqlardan səmərəsiz istifadə və bir çox torpaqların becərilməməsi bu gündə ciddi problem olaraq qalır. Torpaqdan səmərəsiz istifadə, becərilməyən torpaqların mövcudluğu büdcəni gəlirlərdən mərhum edir. Yeni yaradılan Parklar bu problemlərin aradan qalxmasına səbəb olacaq. Torpaqların səmərəli istifadəsinin artmasında, istifadəsiz torpaqların becərilməsində, torpaqlardan bol məhsulların əldə edilməsində, yerli fermerlərin həvəsləndirilməsində Parkların rolu böyük olacaq. Regionlarda yaradılan Parklar fermerlərə məhsullarının birbaşa Parklara təhvil verilməsində və gəlirlərinin əldə edilməsində əvəzsiz rol oynayacaq. Bu öz növbəsində iqtisadiyyatın böyük bir qolu olan və çoxlu işçi qüvvəsi tələb edən kənd təsərrüfatı kimi bir sahənin inkişafına təkan verəcəkdir. Pambıq, üzüm, kartof və s. kimi ənənəvi kənd təsərrüfatının dinamik inkişafına nail olunacaq.

Hal-hazırda ölkə bazarlarında ərzaq məhsulları sahəsində yerli firmalar xarici firmalarla rəqabətə tab gətirə bilmir və ərzaq təhlükəsizliyinin təminində mövcud problemlər meydana gəlir. Parkların yaradılması ilə ölkədə ərzaq təhlükəsizliyi təmin olunacaq, xarici firmaların bu sahədə fəaliyyəti yerli müəssisələr hesabına təmin olunaraq gələcəkdə xarici bazarlara çıxış əldə edilələcək. Burada Sənaye Parkları ilə Aqroparklar arasında sıx əlaqəni xüsusi ilə vurğulamaq lazımdır. Bu əlaqə tək ərzaq təhlükəsizliyinin təmində yox, bütövlükdə kənd təsərrüfatının inkişafında öz töhfəsini verəcək.

Parkların üstün cəhətlərindən biri də "Made in Azerbaijan" brendinin təbliği və xarici bazarlarda məhsullarımızın rəqabət qabiliyyətinin artırılmasında oynadığı roldur. Parklarda istehsal olunacaq məhsullar üzərində "Made in Azerbaijan" brendi vurularaq xarici bazarlarda Azərbaycan məhsulu kimi satılacaq. Təsəvvür etsək ki, Parklarda istehsal edilən çeşidli məhsullar üzərində "Made in Azerbaijan" brendi ilə öz istehlakçısına çataraq, brendin təbliği geniş bazarlara çıxış əldə edəcək.

Parkların fəaliyyəti ilə yerli məhsulların istehsalı, fermerlərin gəlirlərinin artması ilə bu sahəyə marağın güclənməsi, daxili tələbat və bazarların yerli məhsullarla təmini dövlətin yerli istehsalçıları müdafiə etməsini gücləndirəcək. Nəticədə, yerli istehsalçı ilə dövlət arasında əlaqələr güclənərək hüquqi baza müstəvisində möhkəmlənəcək və buda istehsalın artmasına müsbət təsir edəcəkdir. Dövlət istehsalçıya hüquqi və maddi dəstək verməklə yerli istehsalçını həvəsləndirəcək və Parklar üçün daxili xammal mənbələrini daha da zənginləşdirəcəkdir. Dövlət və yerli istehsalçı arasında olan sıx əlaqə Sənaye Parklarının xarici xammal mənbələrindən asıllığını ləğv edəcək və daxili xammalın istehsala cəlb edilməsində maraqlı olacaqlar.



*Mahmud Sadıqov,*
*ADİU-nun magistrantı*



# Dövlət büdcəsində 1 milyard manata yaxın kəsir

Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2016-cı ilin yanvar-noyabr aylarında dövlət büdcəsinə 12 milyard 965,5 milyon manat vəsait daxil olmuş, büdcədən 13 milyard 927,4 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında yaranmış 961,9 milyon manatlıq kəsir ümumi daxili məhsulun 1,8 faizi səviyyəsində olmuşdur.

# Əhali 1 milyard manatlıq kredit faizi ödəyib

2016-cı ilin yanvar-noyabr aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əhalinin gəlirləri nominal ifadədə 8,9% artaraq 40 milyard 28,5 milyon manata çatıb.

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, gəlirlərin 79,4%-i və ya 31 milyard 783 milyon manatı son istehlak xərclərinə, 9,1%-i və ya 3 milyard 600 milyon manatı vergilərin, sığorta və üzvlük haqlarının, 2,6%-i və ya 1 milyard 41 milyon manatı kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilib, 8,9%-i və ya 3 milyard 600 milyon manatdan bir qədər az isə yığıma yönəldilib.



# XARİCİ REKLAM

*(əvvəli ötən sayımızda)*

Stasionar vasitələr ayrı olan və bina, o cümlədən tikililərdə yerləşən növlərə bölünür. Xarici reklamın ayrı olan vasitələri binalarda qurulanlardan fərqli olaraq müstəqil bünövrəyə və ya yerləşmə sahəsinə malikdir.

Xarici reklamın əsas vasitəsi iri qabaritli plakatlardır. Lövhə konstruksiyaları üzərindəki plakatlar adətən magistral avtomobil yolları boyunca və insanların sıx toplaşdığı yerlərdə yerləşdirilir və əmtəələri (mallar) istehlakçılara xatırladır və ya onların alqı-satqısının baş verdiyi yerləri potensial alıcılara göstərir.

Multiviziya qurğuları elektrik mühərrikləri (motoru) ilə hər 8 saniyədən bir dönən şaquli üçüzlü prizmaların yerləşməsindən ibarətdir.

Beləliklə, ardıcıl olaraq 3 müxtəlif reklam xəbəri əmələ gəlir. Xarici reklamın bu gün daha geniş imkanlara malik olan elektron vasitələrlə nümayiş etdirilməsi, həmçinin televiziya verilişlərini real zaman miqyasında canlandırmağa imkan verən çoxrəngli işıq saçan elementlər əsasında iriformatlı (metrli) ekranda tam rəngli dinamik təsvir populyardır. Belə qurğuların ən nəzərə çarpan üstünlükləri – tamaşaçıya daha emosional təsir, şəkillərin dəyişilməsi, onların dinamikası, parlaq rənglərdir. Xəbərlər sutkanın vaxtından, həftənin günündən, havadan və s. asılı olaraq dəyişə bilər. Əsas reklama çox zaman lokal xəbər və informasiyanı əlavə edirlər.

Xarici reklamın vasitələrinə aiddir:




- Binaların və tikililərin damında olan qurğular – binanın pərvazı (divarın yuxarı tərəfində, qapı, pəncərə üstündə çıxıntı) səviyyəsindən yuxarıda yerləşən geniş həcmli və ya düz səthli konstruksiyalar.
- Divardan asılan və ya divara vurulan pannolar – bərkitmə, karkas (gövdə) və ya informasiya sahəsi elementlərindən ibarət olan, divara və ya konstruksiyaya bilavasitə vurulan, bina və tikililərin divarlarının düz səthi üzərində yerləşdirilən xarici reklam vasitələri.

*(davamı gələn sayımızda)*

**F.M.Qarayev,**
**BDU-nun dosenti**

# İdarəetmədə insan resurslarının rolu

Çalışdığımız təşkilatda davamlı inkişafı və rəqabətə dayanıqlığı təmin etmək üçün keyfiyyət idarəetmə sisteminin səmərələrindən istifadə edilməlidir. Hər bir təşkilatın fəaliyyət göstərməsində maraqlı tərəflər vardır: müştəri, əməkdaşlar, səhmdar, təchizatçılar və Dövlət. Hər bir maraqlı tərəfin isə öz maraq dairəsi var: Müştərilərə ona təqdim edilən məhsulun keyfiyyəti, qiyməti və çatdırılmasına ayrılan zaman, əməkdaşlara əməkhaqqının yüksək olması, karyerada inkişaf, imic əldə etmək, səhmdarlara müəssisənin fəaliyyəti üçün ayırdığı kapitalı qısa müddətdə əldə etmək, daha çox gəlir əldə etmək, dövlətə müəssisənin fəaliyyət göstərməsilə yeni iş yerlərinin yaranması, dövlət büdcəsinə ödənilən gəlir vergisinin təmin edilməsi, təchizatçılara isə müəssisənin fəaliyyət göstərməklə ondan daha çox xammal materıalın alınması maraqlıdır. Qeyd edilən maraqlı tərəflərdən biri - müştərilərin maraq dairəsini təmin etməklə müəssisə fəaliyyətində maraqlı olan digər tərəflərin maraq dairəsini təmin etmiş oluruq. Müştəri tələbi öyrənilməli, mikro və makroiqtisadi amillər qiymətləndirilməlidir. Qiymətləndirmə nəticəsində hədəflər planlanır və bu hədəflərə nail olmaqda insan resursları əhəmiyyətli rola sahibdir. İnsan resurslarının səmərəli idarə edilməsi və təşkilata verdiyi dəyərin göstəricisini artırmaq üçün aşağıdakı məqamların tənzimlənməsi vacibdir:

### 1. İnsan resurslarının cəlb edilməsi

Qarşıya qoyulan hədəflərə nail olmaq üçün insan resurslarının düzgün seçimi aparılmalıdır.İnsan resurslarının seçimində müəyyən meyarlar nəzərə alınmalıdır:

- Namizədin təşkilatın korporativ dəyərlərinə cavab verməsi. Bir çox təşkilatlar bu meyara önəm verərək yaranmış vakant yer üzrə namizədləri daxildə olan kadr ehtiyatından seçir. Çünki onlar təşkilatın dəyərlərinə cavab verir və təşkilat xaricindən qəbul ediləcək işçi üçün ayrılacaq zamana qənaət etmiş olur.
- Namizədin fəaliyyət sahəsi üzrə təcrübəsinin və nailiyyətlərinin tələb olunan vəzifəyə cavab verməsi.
- Təşkilatın inkişaf tarixi ilə namizədin öz karyerasında olan inkişaf dövrü arasında müəyyən tarazlığın olması. Məqsəd kadr loyallığını təmin etməkdir.
- Namizədin təşkilata gətirəcəyi faydaların qarşıya qoyulmuş hədəflərə cavab verməsi.

Bir qrup şirkətlər insan resurslarını xüsusi kadr xidməti müəssisələri vasitəsilə təmin etməyi üstün tuturlar. Burada məqsəd xidmət müqaviləsinin qüvvədə olduğu müddətdə kadrın təşkilatın dəyərlərinə cavab verdiyini qiymətləndirmək və bununla düzgün kadr seçiminə əminliyi artırmaqdır.

Təşkilata cəlb etdiyimiz hər bir işçi üçün karyera inkişaf planı hazırlanmalıdır.Kareyera inkişaf planı hazırlarkən və hədəflər üzrə rollar müəyyən edilərkən işçilər arasında Mayer Briqs testini keçirmək tövsiyə edilə bilər.

### 2. İnsan resurslarının fəaliyyətə adaptasiyası

İnsan resurslarını fəaliyyətə uyğunlaşdırmaq üçün təşkilatın fəaliyyətini tənzimləyən normativ sənədlər olmalıdır. Bu normativ sənədlər proses, prosedur və qısa təlimatlar formasında tərtib edilir.



*Elməddin Hüseynov,*
*AtaHolding Keyfiyyət şöbəsinin rəisi*

Normativ sənədlər təşkilatın aparıcı kadrlarının beyin məhsuludur və işçilərə fəaliyyət sahəsində səmərəli nəticə əldə etməyə imkan yaratmalıdır. İşçilər normativ sənədlərin tələbləri barədə maarifləndirilməli və mənimsəmə səviyyəsi qiymətləndirilməlidir. İşçilər təşkilatın siyasəti və hədəflər ilə tanış edilməli, hədəflərə nail olmaq üçün motivasiya sistemi qurulmalıdır. Motivasiyanın ən səmərəli forması isə vəzifələr üzrə dərəcələndirməni (Məsələn: Hay metod səmərəli metodlardan biridir) etməklə həyata keçirmək olar. Bu həm kadrlar arasında rəqabət mühiti həm də kadrların peşəkarlıq səviyyəsinin artırılmasına stimul yaradır, bununla da təşkilatın imici yüksəlir. Qeyd edilənləri nəzərə almaqla biz insan resursuna yaponların Kaizen - davamlı inkişaf nəzəriyyəsinin elementlərini tətbiq etmiş oluruq.

İnsan resurslarının təşkilatda qərar verən vəzifəli şəxslərə əlçatan olmasını təmin etmək lazımdır. Bu təşəbbüskarlıq təşkilatın qərarverən vəzifəli şəxsləri tərəfindən təmin edilməlidir.

### 3. İnsan resurslarının fəaliyyətinə nəzarət

İnsan resurslarının fəaliyyətinə nəzarət metodları işlənməlidir. Bu nəzarət kadrın təşkilatın dəyərlərinə cavab verdiyini, onun peşəkarlıq səviyyəsini və onun artırılması ehtiyaclarını, motivasiya ehtiyacını qiymətləndirmək üçündür.Qiymətləndirmə işçinin birbaşa rəhbəri, eyni proses iştirakçıları,müştərilər, test müştəriləri və işçinin özü tərəfindən aparılmalıdır.

Yuxarıda qeyd edilənləri həyata keçirmək üçün hər bir təşkilat özündə korporativ idarəetmə sistemini qurmalı və mütəmadi olaraq fəaliyyətə uyğunluğunu təmin etməlidir. İnsan resurslarının təşkilatı idarəetmədə rolunu nəzərə alaraq onlardan faydalanmaq üçün aşağıdakı qrup normativ sənədlərin istifadəsi məqsədəuyğundur:

*1. Fəaliyyət sahəsi üzrə vəzifələrin dərəcələndirilməsi*
*2. İnsan resurslarının işə cəlb edilməsi*
*3. İnsan resurslarının adaptasiyası*
*4. İnsan resurslarının xidməti fəaliyyətinin qiymətləndirilməsi*
*5. İnsan resurslarının peşəkarlıq səviyyəsinin artırılması*
*6. İnsan resursu ehtiyatının idarə edilməsi*
*7. Motivasiya sisteminin idarəedilməsi*
*8. Əmək münasibətlərinin tənzimlənməsi (məzuniyyət, ezamiyyət, müqaviləyə əlavələr və xitam verilməsi əhatə edilə bilər).*

Ən vacibi isə hər bir kadrın işini tənzimləyəcək işçi proseslər.

# “Nar” və “İrşad Electronics”-dən növbəti müştərək kampaniya

*Yeni il ərəfəsində “İrşad Electronics”-dən smartfon və ya planşet al, “Nar”-dan hədiyyələr qazan!*




“Nar” və “İrşad Electronics” mağazalar şəbəkəsi birgə növbəti kampaniyaya start verdilər. Belə ki, 17 gün davam edəcək kampaniya çərçivəsində hər kəs yalnız komissiya haqqı ödəmək şərtilə “İrşad Electronics” dükanlarından 6 aylıq faizsiz ödəmə ilə istənilən smartfonu və ya başqa cihazı ala bilər. Əlavə olaraq, smartfon almış hər bir şəxs bonus şəklində “Nar”-dan nömrə, aylıq 33,33 AZN dəyərində şəbəkədaxili danışıq balansı və 250 MB internet trafiki hədiyyə alır.

Kampaniyadan yararlanıb mobil telefonları əldə etmək üçün “Nar”-ın rəsmi tərəfdaşı olan “İrşad Electronics” mağazalarına müraciət etmək kifayətdir. 15 dekabr – 31 dekabr 2016-cı il tarixləri arasında aktiv olacaq kampaniya bütün məhsulları əhatə edir.

Əlavə məlumatı nar.az internet səhifəsi və “İrşad Electronics” çağrı mərkəzi (*0171) vasitəsilə öyrənmək olar.

# Azərbaycan iqtisadiyyatında geriləmə 4%-ə yaxınlaşdı

*2016-cı ilin yanvar-noyabr aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri açıqlandı*



2016-cı ilin yanvar-noyabr aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 54 milyard 433,1 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,9 faiz az ümumi daxili məhsul istehsal edilmişdir.

Dövlət Statistika Komitəsinin yaydığı məlumata görə, azalmanın əsas səbəbi tikinti sektorunda istehsalın keçən ilin eyni dövrü ilə müqayisədə 27,9 faiz azalması olmuşdur.

Əlavə dəyərin 37,5 faizi sənayedə, 10,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 10,3 faizi tikinti, 6,7 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə, 17,6 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 7,5 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 5649,9 manata bərabər olmuşdur.

# “AtaBank” müştərilərini sevindirməyə davam edir




**“AtaBank” ASC-nin “Hədiyyəli Yeni İl” kampaniyası çərçivəsində, 13.12.2016 – 30.12.2016 tarixləri ərzində tam sığortalı əmanət yerləşdirən müştərilər istədikləri hədiyyələri seçmək şansını qazanırlar.**

Əmanətçilərə müqavilə ilə birgə hədiyyələr siyahısı təqdim olunur və müştərilər yerləşdirdikləri məbləğin dəyərindən asılı olaraq hədiyyə seçimi edirlər.

Belə ki, “AtaBank”-da əmanət yerləşdirən müştərilərə veriləcək hədiyyələr aşağıdakilardır: İphone 7 (128 GB), İphone 7 (32GB), Excelsior Hotel, Chinar Hotel & SPA, Excelsior Hotel Shamkir, Qalaaltı Hotel & SPA otellərində istirahət, müalicə və idman paketləri.

Kampaniya yalnız fiziki şəxslərə şamil olunur və yola saldığımız ilin son iş günü, yəni 30 dekabr 2016-cı il tarixinədək qüvvədədir.

Əmanətlərin şərtləri ilə daha ətraflı şəkildə tanış olmaq üçün 136 məlumat mərkəzi ilə əlaqə saxlaya bilərsiniz.

Həmçinin 30.07.2007-ci ildən Əmanətlərin Sığortalanması Fondunun üzvü olan “AtaBank” müştərilərə bildirir ki, "Əmanətlərin tam sığortalanması haqqında" Qanununun şərtlərinə uyğun olaraq "AtaBank"-da yerləşdirilən əmanətlər məbləğindən asılı olmayaraq 3 il müddətinə tam sığortalanır.

İDEAL DİZAYN
Daimi tərəfdaşınız

Ofis mebeli və layihələr

- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar

Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az



Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sahibkarlıq və sənaye komitəsinin sədri, akademik Ziyad Səmədzadə Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmova əzizi
**KNYAZ ƏLƏSGƏR OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və “İqtisadiyyat” qəzetinin kollektivi Bakı Dövlət Universitetinin rektoru, akademik Abel Məhərrəmova əzizi
**KNYAZ ƏLƏSGƏR OĞLU ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN**

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 (fax)
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
“İQTİSADİYYAT” qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 İndeks: 0355 Tiraj: 3150